**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "MOLLA NƏSRƏDDİN" VƏ TÜRK SATİRİK MƏTBUATI

İxtisas: 5717.01–Türk xalqları ədəbiyyatı
5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Gülbəniz Məcnun qızı Babayeva**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Mətbuat tarixi və publisistika" şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

filologiya elmləri doktoru, professor
**Qəzənfər Məhəmməd oğlu Paşayev**

filologiya elmləri doktoru, professor
**Allahverdi Məhərrəm oğlu Məmmədli**

filologiya elmləri doktoru, professor
**Fərman Yunis oğlu Xəlilov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

__________________

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**

__________________

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Almas Qasım qızı Binnətova**

__________________

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan milli mətbuatının ilk satirik orqanı olan “Molla Nəsrəddin” jurnalı XX əsrin əvvəllərində dünyada gedən mürəkkəb ictimai-siyasi hadisələrin kəskinləşdiyi bir şəraitdə meydana gəldi. Əsrin bu mərhələsi 1905-ci il inqilabı, Birinci dünya müharibəsinə aparıb çıxaran iğtişaşlar, totalitar cəmiyyətin bəşəriyyətə vurduğu mədəni və mənəvi zərbələr, kataklizmlər və bütövlükdə insan probleminin qabardılması özəlliyi ilə yaddaqalandır. Bu mürəkkəb proseslər fonunda “Molla Nəsrəddin” jurnalının bütün parametrlərdə milli gerçəklikləri dərk edən və onun hüdudlarına yetən bir dərgi kimi fəaliyyətə başlaması labüd idi. Jurnal nəşrə başladığı gündən 25 il öz səhifələrində bəşər sivilizasiyasının bir hissəsi olan Şərq mədəniyyətini, o cümlədən Azərbaycan düşüncə tərzini, milli problematika, milli dil, milli üslub komponentlərinin təzahürünü gündəmə gətirməklə xalqımızın keçdiyi böyük təkamül yolunu izləyə və işıqlandıra bilmişdir. “Molla Nəsrəddin” jurnalı Azərbaycanda demokratik dövlət quruculuğuna yüksək önəm vermiş, Cümhuriyyət ideyalarını dəstəkləmiş, Qarabağ həqiqətlərini öz səhifələrində işıqlandırmış və erməni-müsəlman məsələlərinin baş vermə səbəblərini açıb göstərmişdir. Lakin 70 illik sovet rejimi bu taleyüklü məsələləri geniş şəkildə işıqlandırmağa, əsl həqiqəti ictimaiyyətə çatdırmağa imkan verməmiş və jurnalın ideoloji mübarizəsini kölgədə qoymağa çalışmışdır. Bütün bu tarixi prosesləri ardıcıl izləmək və təhlil süzgəcindən keçirmək problemə yeni rakursdan yanaşmağı aktuallaşdırır.

“Molla Nəsrəddin” jurnalının nəşri, təşəkkülü və müəyyən ənənələrə söykənməsi onun möhkəm özüllər üzərində bərqərar olduğunu göstərir. Jurnal nəinki Azərbaycan ədəbiyyatı və mətbuatının, eləcə də türk, tatar, o cümlədən bütövlükdə Şərq, rus və Avropa xalqlarının çoxəsrlik ənənələrindən rişələnərək boy vermişdir. Keçən əsrin 30-cu illərindən tədqiqat predmetinə çevrilən “Molla Nəsrəddin” jurnalının yaranması, formalaşması və böyük bir hərəkata çevrilərək ədəbi məktəb yaratması məsələlərini araşdırmaçılar daha çox Rusiya və Zaqafqaziyanın bir sıra

mərkəzlərində, xüsusilə də Peterburq və Moskvada nəşr edilən “Kukureku”, “Zritel”, “Siqnal”, “Streli”, “Adskaya poçta”, “Yupel” kimi mətbuat orqanlarının təsiri ilə əlaqələndirmişlər. Birtərəfli yanaşma uzun müddət, yəni keçən əsrin 90-cı illərinə qədər yazılmış tədqiqat əsərlərinin əksəriyyətində özünü göstərmişdir. Akademik İsa Həbibbəylinin çoxsaylı sanballı araşdırmaları və qismən də olsa Nazim Axundovun “Azərbaycan satira jurnalları”(1906-1920-ci illər) adlı tədqiqatı istisna olunmaqla, “Molla Nəsrəddin”in bütövlükdə türk dünyasına, Türkiyə, Orta Asiya, tatar, eləcə də türkdilli xalqların satirik mətbuatına təsiri və qarşılıqlı əlaqəsi ilə bağlı fundamental tədqiqatlara rast gəlmək çətindir. Xüsusilə də, Türkiyənin yüzdən artıq satirik mətbuatı araşdırmalardan kənarda qalmışdır. Ancaq rus və Avropa mətbuatı ilə yanaşı Azərbaycan ədəbiyyatı və mətbuatına türk dünyasının təsirsiz qalmadığı inkarolunmaz bir faktdır. Buna görə də problemə Şərq mədəniyyətinin ayrılmaz tərkib hissəsi kontekstindən yanaşılması daha obyektiv görünür. Çünki “Molla Nəsrəddin” jurnalının ideya qaynaqları, qarşılıqlı təsirlənmələri, ədəbi əlaqələri sırasında 150 illik bir tarixə malik olan Türkiyə satirik mətbuatının, tatar, Orta Asiya xalqlarının və Cənubi Azərbaycanda fəaliyyət göstərən eyni üslublu qəzet və jurnalların müstəsna rolu vardır. Kökləri uzun illərə dayanan ümumtürk mətbuatı daim bir-biri ilə qarşılıqlı əlaqədə olmuş, bu və ya digər şəkildə bir-birindən bəhrələnmişdir. “Molla Nəsrəddin” jurnalına nəzər saldıqda buradakı janr rəngarəngliyini başqa türk satirik mətbuat nümunələrində də görmək mümkündür. Karikatura ənənələri ilə zəngin olan türk-Osmanlı satirik mətbuatının təsirləri “Molla Nəsrəddin”də də özünü göstərmişdir. Təsadüfi deyildir ki, Azərbaycan satirik mətbuatının əsasını qoyan “Molla Nəsrəddin” dərgisi öz adını ümumtürk ədəbiyyatının Xoca Nəsrəddinindən götürmüşdür. Eləcə də Azərbaycanda çıxan bir çox satirik jurnalların adlarının digər türk ədəbiyyatlarında özünü ya dərgi, ya da imza şəklində göstərməsi də təsadüfi deyildir. Bu, ümumtürk ortaq dəyərlərin göstəricisi kimi maraq doğurur və problemin aktuallığını gündəmə gətirir.

Orijinal üslublu bu satirik jurnal Azərbaycan mətbuatının sonrakı inkişafına geniş yol açdı və ədəbi məktəb səviyyəsinə yüksələ bildi. Mətbuat tariximizə “mollanəsrəddinçilər” adı ilə daxil

olan böyük bir ədəbi qüvvənin təmsilçiləri-Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əli Razi, Bayraməli Abbaszadə və başqalarının müstəsna xidmətləri sayəsində Azərbaycan varlığı, Azərbaycan həqiqətləri sərhədləri aşaraq nəinki Şərq aləminə, hətta Qərb dünyasına da yol açdı.

"Molla Nəsrəddin" jurnalı Şərq arealında XX yüzilliyin təzadlarla dolu paradoksallığına milli ənənələrə söykənərək, ictimai-siyasi, mənəvi-sosial, ədəbi-mədəni və psixoloji aspektdən yanaşaraq dünyaya yeni bir pəncərə açdı."Bəhlul" (1907), "Zənbur" (1909-1910), "Mirat"(1910),"Arı" (1910-1911), "Kəlniyyət" (1912-1913), "Məzəli" (1914-1915), "Tuti" (1914-1917), "Babayi-Əmir" (1915-1916), "Məşəl"(1919),"Kirpi"(1952) və başqa satirik mətbuat orqanları "Molla Nəsrəddin" ədəbi məktəbinin davamçıları kimi ortaya çıxdı.

Jurnal mətbuatda işıqlandırdığı elm, təhsil, ana dili, qadın azadlığı, ailə-məişət məsələləri, xurafatın, cəhalətin ifşası və s. problemlərlə yanaşı, ədəbiyyata gətirdiyi yeni janrlar və yaradıcılıq üslubları ilə də fərqlənmişdir. Ədəbiyyatımızda ilk dəfə işlənən bəhri-təvil, qırmanc, taziyanə, sual-cavab tipli janrlara jurnalda geniş yer verilmişdir. Köhnəlmiş ənənələri dağıdaraq ədəbi məktəb yaradan mollanəsrəddinçilər yeni ədəbi metodların da yaradıcılarıdır.

"Molla Nəsrəddin" jurnalı təkcə Şimali Azərbaycanda deyil, həm də dünyanın bir çox ölkələrində yaşayan türksoylu xalqların problemlərindən söhbət açmışdır. Geniş arealda yayılan jurnal öz səhifələrində Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizi daim diqqət mərkəzində saxlamış, orada cərəyan edən ictimai-siyasi, mədəni, sosial-iqtisadi məsələlərə münasibət bildirmiş, milli azadlıq hərəkatına dair yazılara geniş yer vermişdir. Eyni zamanda rus imperiyasının və fars şovinizminin əli ilə ikiyə parçalanmış soydaşlarımızın ağır məhrumiyyətlər içərisində keçən həyat tərzini, acınacaqlı sosial durumunu, fanatizmin Cənubi Azərbaycanda daha da genişlənərək insanları cəhalətə sürükləməsini müntəzəm şəkildə öz səhifələrində əks etdirmişdir. Sonralar Zaqafqaziyada, Tiflisdə, Şimali Azərbaycanda cərəyan edən siyasi hadisələr, sovet rejiminin

ciddi təqibləri, qadağaları ilə üzləşməsi səbəbindən "Molla Nəsrəddin" 1921-ci ilin 20 fevral tarixindən Təbrizdə nəşr olunmuşdur. Burada jurnalın cəmi 8 nömrəsinin dərc olunmasına baxmayaraq, az müddətdə "Molla Nəsrəddin" xalqın mübarizə əzmini yüksəltməklə onlarda milli özünüdərkə güclü təkan verdi, realist-satirik ədəbiyyatın, milli mətbuatın yaranmasına, formalaşmasına geniş imkanlar açdı. Jurnalın təsiri ilə Mirzəli Möcüz, Əbülfət Ələvi, Seyid Əli Behzad, Mirzə Məhəmmədəli Nəqqaş, Əli Azəri kimi yeni mollanəsrəddinçilər nəsli yetişdi. "Molla Nəsrəddin"in Təbriz mərhələsi Cənubi Azərbaycanda yeni mətbuat orqanlarının yaranması və formalaşmasına gətirib çıxardı. 1906-cı ildə Təbrizdə Əliqulu Səfərovun redaktorluğu ilə nəşrə başlayan "Azərbaycan" satirik jurnalı mənəvi körpü rolunu oynamış, xalqı birliyə səsləmişdir. Rəştdə çap edilən "Nəsime-şimal", "Amuziqar" kimi mətbuat orqanlarında "Molla Nəsrəddin" jurnalının təsiri açıq-aydın duyulmaqdadır. 1907-ci ildə Tehranda nəşrə başlayan "Suri-İsrafil" və "Həşəratül-ərz"(1908) satirik qəzetləri də"MollaNəsrəddin"ənənələrini uğurla davam etdirirdilər. Vera Klyaştorina, Əbdürrəhman Tahircanov, Məhəmmədluyi Abbasi, Əhməd Kəsrəvi, Mirzə Əliəkbər Dehxuda, Səməd Sərdarniya, Cəfər Xəndan, Əziz Mirəhmədov, Əhməd Şəmidə, Nazim Axundov, Turan Həsənzadə və başqa görkəmli alimlər "Molla Nəsrəddin" jurnalının İran və Cənubi Azərbaycan satirik mətbuatı ilə qarşılıqlı əlaqələrini tədqiq etmişlər.

"Molla Nəsrəddin" jurnalının Bakı mərhələsi digər iki mərhələdən fərqlənir. Belə ki, çox mürəkkəb ictimai-siyasi şəraitdə, sovet rejiminin ciddi təzyiqləri altında fəaliyyət göstərən "Molla Nəsrəddin" məhdud çərçivələri sındıraraq yenə də xalqın mənafeyinə, onun maariflənməsinə, inkişaf və təkamülünə xidmət göstərirdi. Jurnala qarşı həm ölkə daxilində, həm də kənardan olan təzyiqlər azalmamış, nəhayət, 1931-ci ildə cəmi iki nömrəsi çap edildikdən sonra fəaliyyətini dayandırmışdır.Bakı mərhələsinin əsas xarakterik xüsusiyyəti sosializm rejiminin cəmiyyətimizdə yaratdığı neqativ halların ifşası, hələ də hökm sürən inzibati amirlik, yeni ideologiyanın-sosializm realizminin özünəməxsus cəhətlərinin və sosial problemlərinin işıqlandırılmasıdır.

150 illik tarixi olan türk satirik mətbuatı nəinki Türkiyə və Azərbaycanda, türk ulusunun yaşadığı bütün coğrafiyalarda uzun və keşməkeşli bir yaşam savaşı sürdürmüşdür. "Molla Nəsrəddin" jurnalından 36 il əvvəl Türkiyədə nəşrə başlayan "Diyojen"(1870), bundan sonra bir-birinin ardınca çıxan "Hayal" (1873), "Çınqıraklı tatar" (1873), "Kahkaha" (1875), "Çaylak" (1876) kimi satirik mətbuat orqanları mövzu, ideya və problematika baxımından Azərbaycanın ilk satirik jurnalına təsirsiz qalmamışdır. Tarixin sonrakı dönəmlərində qarşılıqlı olaraq Türkiyədə satirik yöndə nəşr edilən 100-ə yaxın satirik dərginin "Molla Nəsrəddin"in satirik publisistika, satirik poeziya və karikatura ənənələrindən yaradıcılıqla bəhrələndiyini müşahidə edirik. Sultan II Əbdülhəmidin 33 illik hakimiyyəti və istibdadı satirk dərgilərin nəşrinə mane olmuş, bir çox mətbuat orqanları ölkə xaricində fəaliyyət göstərmiş, 1881-1883-cü illərdə 32 adda kitab, qəzet, dərgi, təqvim və s. yayım müsadirə olunaraq məhv edilmişdir.

1908-ci il İkinci Məşrutiyyətin elanından sonra (1908-1918) 92 satirik dərgi və qəzet nəşr edilmişdir.1919-1923-cü illəri əhatə edən Milli Mücadilə mərhələsində "Diken"(1918), "Güleryüz" (1921), "Aydede" (1922), "Akbaba" (1922) kimi dərgilər çap olunmuşdur. "Akbaba"nın nəşri 55 il davam etmiş və Türkiyənin ən uzunömürlü satirik dərgisi adını almışdır. 1947-ci ildən fəaliyyətə başlayan "Marko Paşa" dərgisi siyasi məsələləri öz səhifələrində geniş şəkildə tənqidə məruz qoymuşdur."Çarşaf" (1976), "Limon"(1985), "Hıbır"(1989), "Bişmiş Kəllə" (1990) kimi dərgiləri Türkiyədə böyük şöhrət qazanmış "Qırqır"ın (1972) varisi hesab etmək olar. Türk satirik mətbuatı "Leman"(1991), "Penguen"(2002), "Uykusuz"(2007) dərgilərinin timsalında bu gün də öz varlığını qoruyur. "Molla Nəsrəddin" ənənələrindən çağdaş dövrdə də Türkiyə satirik mətbuatının yararlandığını görmək mümkündür.

Türkiyədə "Molla Nəsrəddin" ədəbi məktəbi haqqında Məmməd Fuad Köprülü, Hilmi Ucabaş, İbrahim Altay Qövsü, Hüseyn Kazım Qədri, Səlim Rəfiq Rəfioğlu, Əbdülvahab Yurdsevər, Nazim Hikmət, Əziz Nesin və başqaları dəyərli fikirlər söyləmiş, sanballı tədqiqatlar yazmışlar. Bununla yanaşı dövri mətbuat orqanlarında, ədəbiyyat tarixi kitablarında, ensiklopediyalarda və

başqa mötəbər mənbələrdə mollanəsrəddinçilər, xüsusən də Sabir haqqında qiymətli fikir və məlumatlara rast gəlirik. Səlim Rəfiq Rəfioğlunun 1941-ci ildə çap olunan“Azərbaycan ədəbiyyatı”, 1946-cı ildə Ankarada yayımlanan “Türk məşhurları”, 1950-ci ildə İstanbulda dərc olunan “İslam ensiklopediyası”, Hüseyn Kazım Qədrinin “Türk lüğəti” adlı kitablarda, “Qurtuluş” jurnalında və digər mənbələrdə “Molla Nəsrəddin” jurnalı, eləcə də mollanəsrəddinçilər geniş tədqiqata cəlb olunmuşdur.

XX əsrin əvvəllərində tatar və Orta Asiya satirik mətbuatının yaranması və formalaşmasında “Molla Nəsrəddin” jurnalının müstəsna xidmətləri olmuşdur. Kazan, Orenburq, Uralsk, Həştərxan, Baxçasaray, Peterburq, Daşkənd və başqa şəhərlərdə nəşr edilən “Tərcüman”(1883), “Vəqt”(1906), “Xa-xa-xa” (1906), “Uklar” (1906), “Cəkirtgə” (1906), “Qarçiqə” (1906), “Top” (1907), “Yaz” (1907), “Yaşen” (1908), “Şura” (1908), “Cögüc” (1909), “Yalt-yult” (1910), “Ak Mulla” (1911), “Qarmaq” (1915), “Tokmak” (1930) kimi mətbuat orqanlarında “Molla Nəsrəddin”lə bağlı yazılar dərc olunmuş, qarşılıqlı olaraq Azərbaycan satirik jurnalında da həmin qəzet və dərgilər haqqında maraqlı məlumatlar yer almışdır. Bu mətbuat orqanları türk xalqlarının birliyini, ictimai-siyasi proseslərdəki rolunu öz səhifələrində işıqlandırmış, ümumtürk arenasında baş verən dəyişikliklərə münasibət bildirmiş, bütövlükdə türk dünyasının özünüifadə vasitəsinə çevrilmişdir. “Molla Nəsrəddin”in türk dünyasına yayımlanması və geniş oxucu kütləsinə çatdırılması ədəbi əlaqələrin möhkəmlənməsinə zəmin yaratmışdır. Jurnalın tatar və Orta Asiya satirik mətbuatı ilə qarşılıqlı əlaqələri görkəmli alimlər Vahid Abdullayev, Toxtasın Calalov, Həmidulla Baltabayev, Akif Bağırov, Qulamhüseyn Əliyev, Almas Binnətova, Yaşar Qasımov və başqaları tərəfindən araşdırılmışdır.

“Molla Nəsrəddin” jurnalı nəşrə başladığı dövrdən Azərbaycanda geniş şəkildə tədqiq olunmağa başlamış, Əli Nazim, Əmin Abid, Mirzə İbrahimov, Əziz Şərif, Mir Cəlal Paşayev, Firudin Hüseynov, Məmməd Cəfər, Qulam Məmmədli, Əziz Mirəhmədov, Abbas Zamanov, Muxtar Qasımov, Məmməd Məmmədov, Nazim Axundov, Kamal Talıbzadə, Yaşar Qarayev, Tofiq Hacıyev, Kamran Məmmədov, Islam Ağayev, Isa Həbibbəyli, Təhsin Mütəllimov,

Elmira Qasımova və başqa görkəmli alimlər dərgi ilə bağlı çoxlu sayda tədqiqatlar, monoqrafiyalar, məqalələr yazmış və böyük bir ziyalı nəsli bu araşdırmalardan bəhrələnmişdir. Ancaq bu tədqiqatların böyük əksəriyyəti keçmiş Sovetlər Birliyi zamanında yazıldığı üçün həmin araşdırmalarda sosializm rejiminin ruhu duyulmaqdadır. Artıq bu cür yanaşma tərzi müstəqillik dövründə yenidən həmin problemə qayıtmağı aktuallaşdırır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini "Molla Nəsrəddin" jurnalı, onun ətrafında formalaşan ədəbi hərəkat və məktəblər, "mollanəsrəddinçilik" təlimi,150 illik tarixə malik olan Türkiyə, Orta Asiya, Cənubi Azərbaycan, tatar satirik mətbuatı və ümumtürk ədəbiyyatşünaslığında "Molla Nəsrəddin" dərgisinin araşdırılması, **predmetini** isə türk dünyasında yayımlanan satirik mətbuat orqanlarında dərc edilən çoxsaylı bədii, publisistik yazılar, nəzm və nəsr nümunələri, karikaturalar təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. XX əsrin əvvəllərində "Molla Nəsrəddin" ədəbi hərəkatının təşəkkülünü, formalaşmasını, təkamül prosesini, sistemliliyini, yeni meyillərini, mollanəsrəddinçilik" təlimi konsepsiyasının yaranmasını, Azərbaycan və türkdilli xalqların, o cümədən Cənubi Azərbaycan, Türkiyə, Orta Asiya və tatar xalqlarının satirik mətbuatına təsirinin və qarşılıqlı əlaqəsinin araşdırılması zərurətini nəzərə alaraq:

- Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalını yetişdirən ictimai-siyasi, ədəbi-mədəni və sosial mühitin real mənzərəsini canlandırmaq;

- Mətbuat tariximizə "mollanəsrəddinçilər" adı ilə daxil olaraq böyük bir ədəbi məktəb-"Molla Nəsrəddin" ədəbi məktəbini yaradan, xüsusilə XX əsr satirik mətbuatının və ədəbiyyatının inkişafında müstəsna rolu olan mollanəsrəddinçilərin tarixi xidmətlərinə yeni dövrün, müstəqillik illərinin prizmasından nəzər salmaq;

-"Molla Nəsrəddin" jurnalının Azərbaycan Xalq Cümhuriyyəti və Qarabağ probleminə, erməni-müsəlman qarşıdurmasına münasibətini aydınlaşdırmaq;

-Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi və başqalarının jurnalın zəngin və çoxçalarlı problematikasını özündə ehtiva edən

publisistikasının mövzu və ideyasını, forma və janr rəngarəngliyini müəyyənləşdirib təsnifatını aparmaq;

- Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əli Razi, Bayraməli Abbaszadə, Mirzə Əli Möcüz və başqalarının satirik poeziyadakı novatorluğuna, realist-tənqidi baxışların yeni tipli satirada bədii əksi məsələlərinə diqqət yetirmək, eləcə də klassik Azərbaycan və Şərq şeirinə, zəngin folklor örnəklərinə etdikləri parodiya, bənzətmə və təhzilləri təhlilə cəlb etmək;

- "Molla Nəsrəddin" karikatura məktəbinin əsas yaradıcıları Oskar Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə və başqalarının jurnalda çəkdikləri rəsmlərlə müxtəlif mövzulu və janrlı bədii mətnlərin harmoniyası, vəhdəti məsələlərinə nəzər salmaq, onların türk karikatura məktəbinə təsiri və qarşılıqlı əlaqələrini müəyyənləşdirmək;

- "Molla Nəsrəddin" jurnalının Yaxın və Orta Şərq ölkələrində nəşrə başlayan satirik mətbuat orqanlarına təsiri problemini tarixi faktlar əsasında araşdırıb mövzu, ideya və üslub baxımından oxşar və fərqli cəhətlərini müqayisələr əsasında təhlilə cəlb etmək;

- Cənubi Azərbaycanda yaranan demokratik ruhlu "Azərbaycan", "Nəsime-şimal", "Amuziqar" "Suri-İsrafil" və digər satirik mətbuat orqanlarının təşəkkülü və formalaşmasında mollanəsrəddinçilərin və bu ədəbi cəbhənin yaratdığı ədəbi-bədii nümunələrin qarşılıqlı təsiri məsələlərini araşdırmaq;

- 150 illik tarixə malik olan Türkiyə satirik mətbuatının keçdiyi inkişaf yoluna nəzər salmaq, ənənəvi və modern üslubun sintezindən yaranan, müxtəlif təmayüllü, iqtidar və müxalif yönümlü dərgi və qəzetlərin spesifik xüsusiyyətlərini aşkara çıxarmaq;

- "Molla Nəsrəddin" jurnalından 36 il öncə "Diyojen"lə (1870) satirik yayım həyatına başlayan Türkiyədə Cümhuriyyət dönəmində 92, ümumilikdə isə 100-dən artıq satirik dərgi və qəzetin ölkə daxilində və beynəlxalq aləmdə baş verən hadisələrə fəal müdaxiləsi məsələlərini təhlilə cəlb etmək;

-Türkiyə satirik mətbuatının Osmanlı (II Sultan Əbdülhəmid dövrü), Cümhuriyyət, Adnan Menderes və çağdaş mərhələdəki yerini, mövqeyini, ölkənin ictimai-siyasi və ədəbi-mədəni həyatındakı rolunu, "Molla Nəsrəddin" jurnalı və mollanəsrəd-

dinçilərin yaradıcılığı ilə sıx bağlılığını araşdırmaq;

-Türkiyə satirik dərgi və qəzetlərində dərc edilən karikaturalarla "Molla Nəsrəddin" jurnalının karikaturalarını paralelləşdirmək, mövzu, ideya və üslub baxımından oxşar və fərqli cəhətlərini müqayisə etmək;

- "Molla Nəsrəddin" jurnalının təsiri ilə Orta Asiyada nəşrə başlayan dərgi və qəzetlərin türk xalqlarını milli birliyə, dirçəlişə və demokratik ideyalara səsləyən satirik yönümlü jurnallarını nəzərdən keçirmək, xüsusilə də bu mətbuat orqanlarının Cəlil Məmmədquluzadə və Mirzə Ələkbər Sabir yaradıcılığına münasibəti və qarşılıqlı əlaqəsi məsələlərini təhlilə cəlb etmək;

- Tatar satirik mətbuatının, "Tərcüman" qəzetinin və onun əlavəsi "Xa-xa-xa"nın "Molla Nəsrəddin" jurnalı ilə qarşılıqlı əlaqəsini aşkara çıxarmaq;

- "Molla Nəsrəddin" jurnalının türk dünyasında tədqiqi məsələlərini aydınlaşdırmaq;

**Tədqiqatın metodları.** Dissertasiya işində mövzu ilə bağlı ədəbi-bədii və tarixi materialların, arxiv sənədlərinin araşdırılması və təhlili prosesində tarixi-xronoloji, analitik-tipoloji, tarixi-müqayisəli və ideya-bədii təhlil üsulu əsas götürülmüş, tarixilik və müasirlik, zaman və məkan prinsiplərinə əməl edilmişdir. Bununla yanaşı tədqiqat işində müxtəlif elmi və siyasi dünyagörüşə malik olan araşdırmaçıların fərqli münasibətlərinə, fikir və mülahizələrinə həmin dövrün prizmasından yanaşılmış, təhlilə cəlb edilən bu və ya digər arxiv materiallarında, tarixi sənədlərdə əksini tapan təmayüllər, siyasi-ideoloji meyillər dəyərləndirilmiş, eyni zamanda müxtəlif elmi mövqelər içərisindən obyektiv istiqamət tapılmasına, habelə yeni istiqamətin müəyyənləşdirilməsinə çalışılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- "Molla Nəsrəddin" jurnalının təşəkkül, formalaşma və təkamül prosesi ilə bağlı yeni faktoloji məsələlərin aşkarlanması;

-Mollanəsrəddinçi satiranın bəhrələndiyi elmi-nəzəri qaynaqların yeni baxışlar sistemində araşdırılması;

-Mollanəsrəddinçilik təliminin əsasında dayanan azərbaycançılıq ideologiyasının yaranması, formalaşması prosesinin ardıcıl və sistemli şəkildə izlənilməsi;

- “Molla Nəsrəddin” jurnalının azad, demokratik və suveren bir dövlət uğrunda mübarizəsi və müstəqillik dövrünün ideallarını yaşatması məsələlərinə aydınlıq gətirilməsi;

-Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında Cəlil Məmmədquluzadənin və mollanəsrəddinçi ədəbi hərəkatın rolunun müəyyənləşdirilməsi;

Jurnalın satirik publisistika və poeziyasının mövzu, ideya və problematikasının əsas istiqamətlərinin müəyyənləşdirilməsi, janr, üslub rəngarəngliyinin nəzəri aspektdən şərhi və konkret nümunələrlə izahı;

- Qarabağ problemi və erməni-müsəlman qarşıdurmasının tarixi kökləri və baş vermə səbəblərinin aydınlaşdırılması;

- “Molla Nəsrəddin” jurnalının Şərq arealında yayılması və təbliğinin araşdırılması;

- Türkiyə satirik mətbuatının yaranması, formalaşması və tarixi mərhələlərinin sistemləşdirilməsi;

-“Molla Nəsrəddin” jurnalı və türk satirik mətbuatının qarşılıqlı əlaqəsinin, ortaq janrlarının aşkarlanması, ənənəvi və modern üslublu qəzet və dərgilərin təsnifatının aparılması;

- Cənubi Azərbaycanda formalaşan satirik ədəbi cəbhənin və mətbuatın yaranmasında “Molla Nəsrəddin” jurnalının rolunun aydınlaşdırılması;

- “Molla Nəsrəddin” jurnalının tatar və Orta Asiya xalqlarının satirik mətbuatına təsiri məsələlərinin aşkara çıxarılması;

- “Molla Nəsrəddin”jurnalının türk dünyasında tədqiqinin müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində aşağıda qeyd edilən elmi yeniliklər əldə olunmuşdur:

- “Molla Nəsrəddin“ jurnalına ümumtürk kontekstindən, yeni ədəbi-mədəni dəyərlərə əsaslanan baxış bucağından, müstəqillik dövrünün prizmasından yanaşılmışdır.

- Jurnalın azad, demokratik və müstəqil bir dövlətin qurulması uğrunda fəal mübarizəsi və əsas ideoloji xətti işıqlandırılmışdır.

-Cəlil Məmmədquluzadə və digər mollanəsrəddinçilərin Azərbaycan Xalq Cümhuriyyətinə münasibəti və öz yaradıcılıqlarında ilk müstəqil dövlətin bərqərar olmasının əsas

atributlarını yazıb göstərməsi faktlar əsasında müəyyənləşdirilmişdir.

- "Molla Nəsrəddin" jurnalının səhifələrində müxtəlif janrlı əsərlərdə əksini tapan Qarabağ problemi, erməni-müsəlman məsələləri konkret nümunələrə istinad edilərək şərh olunmuşdur.

- "Molla Nəsrəddin" jurnalının zəngin və çoxşaxəli publisistikasının janr və üslub rəngarəngliyinin təsnifatı aparılmış və mollanəsrəddinçi publisistikanın spesifik xüsusiyyətləri aydınlaşdırılmışdır.

- Mollanəsrəddinçi satirik poeziyada klassik Şərq şeiri və folklor örnəkləri əsasında yaradılan parodiya və perifrazların qeyri-adi üslubu, özünəməxsusluğu, məzmun və ideya zənginliyi, dövrə və zamana uyğunluğu ön plana çəkilmişdir.

-25 illik fəaliyyəti dövründə jurnalın dərc edilmiş ümumi sayının 741, Bakı mərhələsinin isə 363 nömrədən ibarət olması faktı dəqiqləşdirilmişdir.

- "Molla Nəsrəddin" jurnalının ortaq mədəniyyətə və tarixi kökə əsaslanan Şərq xalqları, xüsusilə türk satirik mətbuatı ilə qarşılıqlı əlaqəsi tarixi faktlarla aşkarlanmışdır. Azərbaycanın ilk satirik mətbuat orqanının türk dünyası üçün önəmi və tarixi xidmətləri müəyyənləşdirilmiş, "Molla Nəsrəddin" jurnalının Türkiyə satirik mətbuatına təsirı məsələləri araşdırılmışdır.

- Sistemli araşdırma nəticəsində 150 illik tarixə malik olan Türkiyə satirik mətbuatı dövrləşdirilmiş, Osmanlı (II Sultan Əbdülhəmid), Cümhuriyyət, Adnan Menderes və çağdaş dövr türk satirik mətbuatının ayrı-ayrı mərhələləri, keçdiyi təkamül yolu ardıcıl izlənilmiş, hakimiyyətlə mətbuat arasındakı paradoksallıqlar tarixi faktlar əsasında təhlilə cəlb edilmişdir.

-"Molla Nəsrəddin" jurnalının Cənubi Azərbaycanda yaranan satirik mətbuata təsiri və qarşılıqlı əlaqəsi, orada gedən azadlıq mübarizəsindəki rolu və mollanəsrəddinçilərin bu prosesdəki tarixi xidmətləri haqqında dolğun təsəvvür yaradılmışdır.

-Tatar, Orta Asiya satirik mətbuatında "Molla Nəsrəddin" ənənələrinin davam etdirilməsi, jurnalda türkdilli xalqların ictimai-siyasi və ədəbi-mədəni həyatının inikası məsələləri arxiv materialları əsasında müəyyənləşdirilmişdir.

- Yaxın və Orta Şərq xalqlarında, eləcə də türk dünyasında

satirik karikatura janrının yaranması və formalaşmasında mollanəsrəddinçi karikaturanın rolu, qarşılıqlı əlaqəsi, oxşar və fərqli cəhətləri təhlilə cəlb olunmuşdur.

- “Molla Nəsrəddin” jurnalının bir əsrdən artıq dövr ərzində türk araşdırmaçılarının diqqət mərkəzində olması və tədqiqi ilə bağlı maraqlı faktlar aşkarlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən XIX–XX əsrdə və XXI əsrin əvvəllərində türk, Azərbaycan mətbuatı və ədəbiyyatının təşəkkülü və təkamülü prosesinin ardıcıl izlənilməsi və araşdırılmasında, habelə Şərq ölkələrində, eləcə də Cənubi Azərbaycan, tatar, Orta Asiya və Türkiyədə “Molla Nəsrəddin” və mollanəsrəddinçilərin təsiri ilə yaranan satirik mətbuat və ədəbiyyatın yaranması, formalaşması ilə bağlı məqalə, dissertasiya və monoqrafiyalarda, çoxcildlik Azərbaycan və türk xalqları ədəbiyyatının müvafiq bölmələrinin yazılmasında istifadə oluna bilər. Dissertasiyadan, həmçinin, abituriyentlər, ali məktəblərin bakalavr və magistrləri faydalana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəa və nəticələri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin Türkiyə, İran, Özbəkistan, Ukrayna, Polşa, Kuba və başqa ölkələrin nüfuzlu elmi jurnallarında, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləşmə sisteminə (bazalarına) daxil olan (Web of Science, Copernicus) dövri elmi nəşrlərdə, ölkə daxilində və xaricdə keçirilən beynəlxalq konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 31yanvar 2017-ci il tarixli (2 saylı protokol) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının 28 dekabr 2017-ci il tarixli (10 saylı protokol) qərarı ilə təsdiq edilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi "Giriş"-23293, əsas məzmun- (I fəsil-110582); (II fəsil-102701); (III fəsil-96195); (IV fəsil-115296), nəticə (11124 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumi həcmi 459292 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın dörd paraqrafdan ibarət olan birinci fəsli **"Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilik: təşəkkül, formalaşma və təkamül prosesi"** adlanır. Fəslin **"Molla Nəsrəddin" ədəbi hərəkatı və mollanəsrəddinçilik"** adlanan **birinci paraqrafında** "Molla Nəsrəddin" jurnalı çoxəsrlik Azərbaycan ədəbiyyatının yeni mərhələsini formalaşdıran, ədəbi-ictimai fikri, milli düşüncə tərzini, ümumbəşəri dəyərləri böyük hadisəyə çevirən və yüksək müstəviyə qaldıraraq xalqa çatdıran monumental söz abidəsi, böyük bir ədəbi hərəkat kimi dəyərləndirilir, mollanəsrəddinçilik konsepsiyası, onun mahiyyəti və əsas müddəalarından bəhs olunur."Molla Nəsrəddin" ədəbi hərəkatının formalaşması prosesi 1906-cı ildən-jurnalın nəşri ilə başlanmışdır. Lakin hərəkatın yaranması və təşəkkül tapması təkcə jurnalla bağlı olmayıb, özündən əvvəlki Azərbaycan və dünya mətbuatından güc almış, eyni zamanda özündən sonra gələn satirik dərgi ənənəsi ilə sıx bağlı olmuşdur. "Molla Nəsrəddin" hərəkatının formalaşması bir günün, bir ilin işi deyildi. C. Məmmədquluzadənin təbirincə desək, "Molla Nəsrəddin"i zəmanə özü yaratdı".

Ulu Öndər Heydər Əliyev Cəlil Məmmədquluzadə irsinə,

onun redaktorluğu ilə nəşr edilən “Molla Nəsrəddin” jurnalına və mollanəsrəddinçilərin yaradıcılığına yüksək qiymət verərək deyir: “Cəlil Məmmədquluzadə dühası “Molla Nəsrəddin”jurnalında öz əksini tapdı. ”Molla Nəsrəddin”, onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində,milli oyanışında böyük rol oynadılar*”*[1].“Molla Nəsrəddin” jurnalı mühitin və zamanın ictimai-fəlsəfi mahiyyətini açmaqla, professional şəkildə satirik publisistika, nəsr, satirik poeziya və karikaturanı inkişaf etdirməklə Azərbaycan ədəbiyyatı tarixində yeni realist ədəbi məktəbin-mollanəsrəddinçilik təliminin əsasını qoydu. Ədəbi məktəb səviyyəsinə yüksələn “Molla Nəsrəddin” jurnalı Azərbaycan milli mətbuatına, ədəbiyyat tarixinə və mədəniyyətinə töhfələr verdi, hətta Şərq və Qərb qovşağında sivilizasiyanın təkamülünə, təşəkkülünə və formalaşmasına güclü təsir göstərdi.“Molla Nəsrəddin” jurnalı 25 illik fəaliyyəti dövründə xalq mənafeyini hər şeydən üstün tutmuş, istismara, fanatizmə, cəhalətə, xurafata, patriarxal düşüncəyə, köhnə stereotiplərə, müstəmləkəçiliyə qarşı barışmaz mövqedə dayanmış, kəskin mübarizə aparmış və bütövlükdə Azərbaycan varlığının təminatçısı və müdafiəçisi kimi çıxış etmişdir. Jurnal dövrün ictimai-siyasi hadisələrlə zəngin olan bir mərhələsinin geniş panoramını yaratmış, erməni daşnaklarının Qarabağda, Zəngəzurda, Naxçıvanda, bütövlükdə əbədi və əzəli Azərbaycan torpaqlarında törətdikləri fəlakətləri, faciə və soyqırımları nəinki öz həmvətənlərinə, eləcə də Şərq və Qərb dünyasına çatdırmışdır.

Bu paraqrafda Əli Nazim, Əziz Mirəhmədov, Mirzə İbrahimov, Nazim Axundov, İsa Həbibəyli[2] və başqa görkəmli alimlərin“Molla

---

[1] Əliyev, H. Cəlil Məmmədquluzadə Azərbaycan xalqının milli dirçəlişində əvəzsiz rol oynamışdır. Ədəbiyyatın yüksək borcu və amalı / Tərtib ed. Vilayət Quliyev. - Bakı: Ozan, - 1999, s. 142.

[2] Nazim, Ə. Seçilmiş əsərləri / Ə.Nazim. – Bakı: Yazıçı, - 1979, - s. 14; Mirəhmədov, Ə. Azərbaycan Molla Nəsrəddini / Ə.Mirəhmədov. – Bakı: Yazıçı, - 1980, - s. 247; İbrahimov, M. Böyük demokrat / M.İbrahimov. - Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, - 1957, - s. 109; Axundov, N. “Molla Nəsrəddin” jurnalının nəşri tarixindən / N.Axundov. – Bakı: 1959, - s. 36; Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə, “Molla Nəsrəddin” jurnalı və

Nəsrəddin" ədəbi hərəkatının formalaşması, ideoloji xətti, satirk üslubunun özünəməxsusluğu, mollanəsrəddinçilik təlimi haqqında fikir və mülahizələrinin təhlilinə geniş yer verilir. Akademik İsa Həbibbəylinin "Mollanəsrəddinçilik" təlimi ötən əsrin 90-cı illərində tamamilə orijinal, yeni baxış müstəvisində yaradılmış monumental bir araşdırma kimi dəyərləndirilir.

Birinci fəslin**"Mollanəsrəddinçi satiranın ideya qaynaqları"** adlı **ikinci paraqrafında** satiranın nəzəri aspektdən şərhi diqqət mərkəzində saxlanılır, görkəmli alimlərin fikir və mülahizələrinə istinad edilir. Beynəlxalq aləmdə tanınan alimlərdən Y.Elsberq, Y.Borev, D.Nikolayev, A.Berqson, Z.Freyd, N.Havtman, E.Qradmon, E.Knix, İ.Mesaroj və başqaları satira ilə yumorun sərhədlərini müəyyənləşdirərkən onlar arasında mövcud olan rişxənd, zarafat, ələsalma, istehza, kinayə, məzhəkə, sarkazm kimi ünsürlərin labüdlüyünü göstərmişlər. Uzun illər satiranı bəzi nəzəriyyəçilər "növ", bəziləri "janr", bəziləri "təsvir üsulu" adlandırmış, ancaq konkret nəticəyə gəlməmişlər. Yunan filosofu Aristotel ədəbi növləri qruplaşdırarkən satiranı nə epik, nə də dramatik növə daxil etmiş, onu yalnız lirik növdə qərarlaşdırmışdır. Buna görə keçən dövr ərzində dünya nəzəriyyəçiləri bu fakta istinad edərək satiranı ya "lirik növün janrı", ya "epik növün janrı", bəzən isə "ədəbi janr" adlandırmağı doğru seçim hesab etmişlər. Lakin "satira janrı" ifadəsi də onun çoxçalarlığını, zənginliyini, rəngarəngliyini doğru, dürüst və hərtərəfli ehtiva edə bilmir. Çünki satira özünü hər üç ədəbi növdə-lirik, epik və dramatik növdə göstərə bilir.

Bu paraqrafda Ə. Nazim, Y. Ağazadə, M. İbrahimov, A. A. Abıyev, K. Məmmədov, A. Zamanov, M. Paşayev, Y. Qarayev, T. Mütəllimov, L. İ. Timofeyev, A. V. Lunaçarski, M.Y.Saltıkov-Şedrin, Y. Borev[3] kimi görkəmli tədqiqatçıların satira ilə bağlı fərqli,

---

mollanəsrəddinçilik. Molla Nəsrəddin (satirik jurnal): [10 cilddə] / Red. akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli . Bakı: Şərq-Qərb, - c. 1, - 2017, - s. 23.

[3] Nazim, Ə. Seçilmiş əsərləri / Ə.Nazim. – Bakı: Yazıçı, - 1979, s. 363-364; Ağazadə, Y. Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı. Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı (Əlyazması hüququnda) / Bakı, - 2013, - s. 4; İbrahimov, M. Böyük demokrat / M.İbrahimov. – Bakı: Azərbaycan SSR EA

bəzi hallarda isə üst-üstə düşən fikirləri müqayisə və paralellər əsasında təhlilə cəlb edilir.

Mollanəsrəddinçilərin yaradıcılığına yumor, satira və kinayənin sintezindən yaranan bir gülüş hakimdir. Onlar fikirlərini daha dəqiq, qüvvətli və sərrast ifadə etmək üçün hər üç növdən istifadə edir, biri digərini əvəz etməklə əsas mətləbi çatdıra bilirlər. M.Ə. Sabir, Ə. Nəzmi, Ə. Razi, S. Mümtaz, B. Abbaszadə, M. Ə. Möcüz və başqa mollanəsrəddinçilər şeirdə özünüifşadan-satirik monoloq və satirik dialoqlardan istifadə yolu ilə oxucuda güldürməklə yanaşı, ciddi şəkildə düşündürmək, nəticə çıxarmaq bacarığını da formalaşdırmışlar.

Mollanəsrəddinçilərin yaradıcılığının üst qatını, görünən hissəsini incə və dərin lirizmlə müşayiət olunan yumor, komik üz örtüyü; alt qatını, astarını satirik öldürücü gülüş, qəmli, hüznlü, kədərli real bir gerçəklik; batinini, mayasını isə yüksək ideallar uğrunda fəal mübarizəyə çağırış ruhu təşkil edir.

**“Molla Nəsrəddin” publisistikasının formalaşması, janr və üslub rəngarəngliyi”** adlı **üçüncü paraqrafda**“Molla Nəsrəddin” jurnalının orijinal üslublu və zəngin ədəbi formalı publisistik əsərləri tədqiqata cəlb olunur və yeni publisistika məktəbinin yaranmasına təsirindən bəhs edilir. “Molla Nəsrəddin” ədəbi hərəkatının, publisistika məktəbinin təminatçısına çevrilən böyük bir ədəbi qüvvə-C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ə. Qəmküsar, Ə. Haqverdiyev, Ə. Nəzmi, S. Mümtaz, Ə. Razi və

---

Nəşriyyatı, - 1957, s. 15-16; Abıyev, A. A. Türk ədəbiyyatında satira / A.A.Abiyev. – Bakı: Avrasiya Press, - 2005, - s. 49; Məmmədov, K. XIX əsr Azərbaycan şeirində satira / K.Məmmədov. – Bakı: Elm, - 1975, - s. 3; Zamanov, A. Sabir bu gün / A.Zamanov. – Bakı: Gənclik, - 1985, - s. 15; Paşayev, M. Azərbaycanda ədəbi məktəblər / M.Paşayev. – Bakı: Ziya-Nurlan, - 2004, - s. 146; Qarayev, Y. Yaradıcılıq metodu. Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığı / Y.Qarayev. – Bakı: Elm, - 1974, - 265 s.; Mütəllimov, T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası / T.Mütəllimov. – Bakı:Yazıçı, - 1988, - s. 228; Тимофеев, Л.И. Основы теории литературы. Москва: Просвешение, - 1976, - с. 387-388; Луначарский, А.В. Собрание сочиений: [в 3-х томах] / Москва: Художественная литература, - т. 3, - 1964, - с. 77; Русские писатели о литературном труде: [в 2-х томах] / Ленинград: Советский писатель, - т. 2, - 1956, с. 678; Борев, Ю. Комическое / Ю. Борев. – Москва: Искусство, - 1970, - с. 98.

başqaları satirik mətbuatımızın inkişafında müstəsna rol oynamışlar

“Molla Nəsrəddin” jurnalının strateji və ideoloji xətti, üslubu felyeton janrını gündəmə gətirmiş, dövrün ictimai eyiblərini göstərmək üçün bu janrın aktuallığından, mütəhərrikliyindən və tipikləşdirmə imkanlarından yaradıcılıqla bəhrələnmişdir. Felyetonlarda faktın vacibliyi əsas götürüldüyündən nəzəriyyəçilər onu iki qrupda sistemləşdirirlər: *“1.Konkret faktlı (siqnal faktlı); 2.Ümumi faktlı (problem faktlı) felyetonlar”*[4]. Mollanəsrəddinçilər felyetonların hər iki növünü yaratmışlar. Əgər birinci növ felyetonlarda günün aktual problemləri, önəmli faktoloji hadisələri və konkret şəxsləri felyetonların əsas mövzusuna çevrilirsə, ikinci növdə isə cəmiyyətdəki köklü ictimai-siyasi, sosial, ədəbi-mədəni və s. problemlər mühüm rol oynayır.

C.Məmmədquluzadənin “Bizim obrazovannılar”, “Ana dili”, “Azarlamaq”, “Meymunlar” felyetonlarında ana dilinə ögey münasibət bəsləyənlər, “Məryəm xanım”, “Erməni və müsəlman övrətləri”, “Qafqaz şeyxülislamına iki dənə açıq məktub”, “Xanımlar” və başqa felyetonlarında qadın əsarətinə qarşı barışmazlıq, köləliyə, mühafizəkarlığa üsyan motivləri əsas yer tutur. Yazıçının “Qoloşapova”, “Qoloşapovun geri çağırılması”, “Şuşa”, “Erməni”, “Erməni-müsəlman davası”, “Şühəda”, “Ermənilər gördülər ki...”, “Həsəd”, “İttihad”, “Zəngilan” və sair felyetonlarında əsrlərlə davam edən erməni-müsəlman qarşıdurmasının baş vermə səbəbləri və daşnakların Qarabağ, Zəngəzur, Xankəndi, Şuşa, Ağdam, Malıbəyli və başqa Azərbaycan ərazilərində törətdikləri fəlakətlərin acınacaqlı nəticələri ürək ağrısı ilə qələmə alınmışdır. C. Məmmədquluzadə “Azərbaycan” və “Cümhuriyyət” məqalələrində (1917) özünün demokratik düşüncələrini, doğma xalqını milli oyanışa və dirçəlişə səsləyən vətənpərvərlik hisslərini təəssübkeşliklə qələmə almış və cəsarətlə Azərbaycan sərhədlərinin xəritəsini sözlə cızaraq gələcək nəsillərə yadigar qoymuşdur. Yazıçı “Həmşəri”, “Yamaq”, “Tüstü”, “İran fəhlələrinin pulu hara gedir”, “İranlılara”, “Necə qan ağlamasın daş bu gün” “Millət”, “Firqələr davası”, “Bekarlar məhəlləsi”, “Vətən xadimləri” və başqa felyetonlarında İranda, Cənubi Azərbaycanda haqqı tapdanan, ağır sosial böhran

[4] Журбина, Е. Искусство фельетона / Е.Журбина. – Москва. – 1965, – с. 96.

içərisində acınacaqlı həyat tərzi keçirən xalqın üzləşdiyi ciddi problemləri gündəmə gətirmiş və onlara azadlığın əldə olunmasının yolunun yalnız mənəvi birlikdən keçdiyini göstərmişdir. M.S.Ordubadinin “Politika aləmindən”, “Ana dilində məktub” Ö. F. Nemanzadənin “Ziyarət”, “Pişik”, “Xortdana məktub”, “Bir neçə günlüyə” və başqa felyetonları jurnalın ümumi məzmun və ideyasını əks etdirən maraqlı nümunələrdir. Ə.Haqverdiyev “Cəhənnəm məktubları”, “Marallarım”, “Mozalanbəyin səyahətnaməsi” kimi silsilə felyeton və hekayələri ilə “Molla Nəsrəddin” ədəbi cəbhəsinin əsas nümayəndələrindən birinə çevrilmişdir.

Mollanəsrəddinçilər şifahi xalq ədəbiyyatının rəvayət, nəsihət, qaravəlli, dini hədislər kimi epik janrlarından sənətkarlıqla istifadə etmişlər. Onlar öz yaradıcılıqlarında ümumi faktlı felyetonların tərcümeyi-hal və nekroloq növünə də müraciət etmişlər. Jurnalda C.Məmmədquluzadənin “Cənab Əhmədbəy Ağayev cənablarına” [“Müştəri məsələsi”.1911,№25,s.2], “Qafqaz şeyxül-islamına iki dənə açıq məktub” [1907,№22,s.2-3], “Xənnas” [1907,№44,s.2-3], “Mustafabəy Əlibəyov” [1911,№28,s.3], Ə. Qəmküsarın “Qarğalar” [1917,№25,s.3-4] pamfleti dərc olunmuşdur. Bu satirik pamfletlərdə cəmiyyətdəki neqativ hallar, daxili eybəcərliklər, çatışmazlıqlar və ictimai xadimlər mollanəsrəddinçilərin tənqid hədəfinə çevrilmişdi.

Dissertasiyanın birinci fəslinin **“Molla Nəsrəddin” jurnalında folklor motivlərindən və klassik şeir şəkillərindən istifadə üsulları”** adlanan **dördüncü paraqrafında** qeyd edilir ki, milli folklora müraciət edən jurnal realist üsluba söykənərək, el ədəbiyyatının yazılı ədəbiyyatla sintezini yaratmağa müvəffəq olmuşdur. Belə ki, xalq təfəkkürünün məhsulu olan nəğmələr, mahnılar, bayatılar, əfsanələr, rəvayətlər, lətifələr, nağıllar, atalar sözləri, məsəllər, tapmacalar və başqa nümunələr “Molla Nəsrəddin”də tamamilə orijinal bir formada, parodiyalar, bənzətmələr şəklində əksini tapmışdır. “Molla Nəsrəddin” ədəbi məktəbinin böyük xidmətlərindən biri də onun klassik ədəbi irslə bağlılığında və öz sələflərinin poetik əsərlərinin forma, struktur özəlliklərinin yeni, orijinal və qeyri-adi təqdimatındadır. Mollanəsrəddinçilər əsrlərcə qəlibləşmiş, stabilləşmiş klassik şeirin qəzəl, müstəzad, mürəbbe, müxəmməs, məsnəvi, rübai, tərkibbənd və

s. şəkillərinə sənətkarlıqla yanaşaraq dövrün ictimai-siyasi, ədəbi-mədəni, sosial problemlərini orijinal formada təqdim etmişlər. Onlar klassik şeir ənənələrinin qəliblərini belə demək mümkünsə, pozaraq məzmunu formaya deyil, formanı məzmuna tabe etməyə üstünlük vermişlər.Bu baxımdan M.Ə.Sabirin qəzəl şəkilli, satirik ruhlu şeirləri bütövlükdə "Molla Nəsrəddin" jurnalının məramnaməsinə ekvivalent olan poetik nümunələrdir. O, lirik janrlı əsərlərin daxili zənginliyindən yararlanaraq *"köhnə formanı yeni məzmuna uyğunlaşdırmağı yaxşı bacaran ustad sənətkardır"*[5]. Sabirin klassik Şərq şairləri Xaqaniyə, Füzuliyə, S. Ə.Şirvaniyə, Raciyə, Namiq Kamala, Mahmud Əkrəmə, Abdulla Cövdətə, Firdovsiyə, Hafizə, Sədiyə yazdığı çoxsaylı nəzirələr şairin dərin poetik imkanlara malik novator bir sənətkar olduğunu aşkarlayır.

Bu paraqrafda "Molla Nəsrəddin" jurnalında cəmiyyətdəki çoxsaylı problemləri əks etdirən müxtəlif janrlı folklor örnəkləri və klassik şeir şəkilləri nümunələr əsasında təhlilə cəlb edilmişdir.

Dissertasiya işinin birinci fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[6].

---

[5] Hüseynov, F. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər / F.Hüseynov. –Bakı: Yazıçı, -1986, - s. 137.

[6] Babayeva, G. Novruz bayramı "Molla Nəsrəddin" jurnalının səhifələrində // Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2015. №2 (94) - s. 313-315; Babayeva, G. "Molla Nəsrəddin" jurnalında ana dili problemi // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. –Bakı: 2016. №2 (98), - s. 344-348; Babayeva, G. "Molla Nəsrəddin" jurnalında erməni-müsəlman məsələləri // Ulu öndərin anadan olmasına həsr olunmuş "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" Beynəlxalq elmi konfransın materialları, - Bakı: Mütərcim, - I hissə, - 3-5 may, - 2016, - s. 109-110; Babayeva, G. Ortaq türk əlifbasının yaradılmasında mollanəsrəddinçilərin rolu // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq konfransın materialları, - Bakı: Elm və təhsil, - 14-15 noyabr, – 2016, - s. 201-205; Babayeva, G. "Molla Nəsrəddin"də folklor motivləri (bayatılar əsasında) // - Bakı: AMEA Xəbərlər, Humanitar elmlər seriyası, – 2017, № 2, - s. 197-200; Babayeva, G. "Molla Nəsrəddin" jurnalında onomastik vahidlər // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat məcmuəsi, - 2017. XXXI cild, - s. 321-327; Babayeva G. "Molla Nəsrəddin"in Teleqraf xəbərləri // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti, - 2017, 3(103), - s. 385-388; Babayeva, G. "Molla Nəsrəddin" jurnalının demokratik dövlət quruculuğu uğrunda fəal

Bu fəslin **“Molla Nəsrəddin”və Osmanlı satirik mətbuatı (II Sultan Əbdülhəmid dövrü)** adlı **birinci paraqrafında** Azərbaycanda Çar Rusiyasının, Türkiyədə Osmanlı İmperiyasının

---

mübarizəsi // Azərbaycan Xalq Cümhuriyyəti - 100: Müsəlman Şərqində ilk Parlamentli Respublika, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, - Bakı: Elm və təhsil, - 21-23 may, - 2018, - s. 543-547; Babayeva, G. “Molla Nəsrəddin” və Qarabağ mövzusu // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, - 2018, XXXII cild, - s. 361-368; Babayeva, G. “Molla Nəsrəddin” jurnalında parodiya və perifrazlar (atalar sözləri, hikmətli sözlər və mənasız sözlər əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2019, № 1, - s. 114-118; Babayeva, G. Satirik poeziyada elm və təhsil məsələləri (“Molla Nəsrəddin” jurnalı əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2019. № 2, - s. 110-117; Babayeva, G. “Molla Nəsrəddin” və folklor (“Tapmacalar” və “El ədəbiyyatı” rubrikaları əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Filologiya və sənətşünaslıq, - 2019, №1, - s. 136-140; Babayeva, G. Naxçıvan abidələri “Molla Nəsrəddin” jurnalının səhifələrində // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti, - 2019. №3(111), - s. 459-461; Babayeva, G. “Molla Nəsrəddin” jurnalı və Xalq Cümhuriyyəti // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2020, №1, - s. 121-127; Babayeva, G. Üzeyir bəy Hacıbəyli və “Molla Nəsrəddin” jurnalı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2020, № 2, - s.164-169; Babayeva, G. “Molla Nəsrəddin” publisistikasının janr və üslub rəngarəngliyi // “Klassik Azərbaycan Ədəbiyyatı və İncəsənətinin Milli Özünütəsdiqdə və Mərkəzi Asiyadakı Mədəni Tərəqqidə yeri” Beynəlxalq Elmi Konfransın materialları, - Bakı: Elm və təhsil, - 26-27 noyabr 2020, - s. 177-178 (tezis); Babayeva, G. Mollanəsrəddinçi satiranın ideya qaynaqları // “Изланиш самаралари” мавзусидаги ёш тилшунос ва адабиётшуносларнинг халқаро илмий анжумани материаллари, - Toshkent: Adast, - 11 dekabr, - 2021, - №6, - s. 256-265; Babayeva, G. Тне richness of idea and content of «Molla Nasreddin” publicism. // - Таврия: Вчени записки йского национального Университета имени В.И Бернадського. Серия Филология , - 2021. Том 32(71), №6. частина 3, - с. 66-70; Babayeva, G. Ömər Faiq Nemanzadə və “Molla Nəsrəddin” ədəbi məktəbi // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2022. №2, - s. 66-71; Babayeva, G. Mollanəsrəddinçi satira nəzəri baxışlar sistemində // - Bakı: Poetika-İzm. AMEA. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, - 2022. №1, - s. 90-97; Babayeva, G. “Xortdanın cəhənnəm məktubları”nda mifik dünya ilə real gerçəklik arasında əlaqə // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2022. №2, - s. 76-82.

bərqərar olduğu 19-cu yüzillikdə satiranın yeni bir inkişaf yoluna qədəm qoyması, II Sultan Əbdülhəmidin öz ölkəsində satirik mətbuatın nəşrinə ciddi maneələr törətməsi və onların təqiblərdən qurtarmaq üçün xarici ölkələrdə fəaliyyət göstərməsindən bəhs edilir. XIX əsrin ikinci yarısından etibarən satirik mətbuat Osmanlıdan dövriyyəyə daxil olur və qısa bir müddətdə qəzet çapına başlanılır. *"Türkcə satirik qəzetlərin ən əski tarixi Tənzimat Fərmanına (3 noyabr 1839) dayanır. Qərbdən ən azı 200 il sonra "Diyojen"(1870) adlı ilk satirik dərgi nəşr edilir. Bu dövrdə qəzet, dərgi, məcmuə, risalə kimi satirik nəşrlər meydana gəlir"*[7]. Osmanlıda ilk satirik dərgi "Boşboğaz bir adam"(1852) adıyla İstanbulda nəşr edilmişdir. İkincisi "Tərəqqi"qəzetinin əlavəsi "Letaifi Asar"(1869)qəzetidir. Bunları nəzərə almasaq, Osmanlıda ilk müstəqil satirik dərgi 1870-ci il noyabrın 24-də Teodor Kasap tərəfindən çıxarılan "Diyojen"dir. "Molla Nəsrəddin" jurnalında olduğu kimi, "Diyojen"də də yazıların əksəriyyəti gizli imzalarla və yaxud imzasız verilmişdir. Bu yazıların əksəriyyəti Namik Kamal, Ali bey, Ebuzziya Tevfik, Nuri bəy, Reşad bəy tərəfindən qələmə alınmışdır. Cəmiyyətdəki qüsurları, ictimai və sosial bəlaları neştərli dili ilə, kəskin ironik bir tərzdə xalqa çatdıran "Diyojen" adını iki min beş yüz il öncə Sinopda dünyaya gəlmiş Diogenesdən almış və onun İskəndərə söylədiyi *"Kölgə etmə, başqa ihsan istəməm"* epiqrafı ilə nəşr olunmuşdur. 10 yanvar 1873-cü ildə "Diyojen"in qapadılmasından sonra Teodor Kasap "Çınqıraklı tatar", "Hayal" və "İstiqbal" adlı satirik dərgilər nəşr etdirmişdir.1873-cü ildə daha bir satirik qəzet-"Latife" nəşrə başlamış, lakin tezliklə qapadılmışdır. Görkəmli araşdırıcı Salih Seyhan yazır ki, "*1870-1877-ci illər arasında osmanlıca 20 satirik dərgi yayımlanmış, ancaq 8 may 1877-ci il tarixdən Heyəti Məbusan bu dərgilərə yasaq qoymuşdur"*[8]. Turqut Çeviker "Gelişim Sürecinde Türk Karikatürü" başlıqlı üçcildlik əsərinin Məşrutiyyət Dönəmini (1908-1918) əhatə edən ikinci cildində bu mərhələdə 92 satirik dərgi və qəzetin olduğunu təsbit etmişdir. Bu dərgilərin əksəriyyəti bir il nəşr edilsə

---

[7] Ünver, M. İstanbulun 100 mizah dergisi / M.Ünver. İstanbul: Kültür A. Ş. Yayınları, - 2016, - s. 10.

[8] Seyhan, S. II Meşrutiyet dönemi mizah basını və içeriklerinden seçilmiş örnekler // - Ərzurum: Atatürk Üniversitesi.Türkish Studies, - 2013. №8/3, - s. 494.

də, bunların arasında “Karagöz” kimi yarım əsrə yaxın öz fəaliyyətini davam etdirənlər də var idi. II Məşrutiyyət dönəmində (1908-1918) yayımlanan satirik dərgiləri üç başlıq altında qruplaşdırmaq olar: a) Ənənəvi satirik dərgi və qəzetlər; b) Batı (Qərb) tərzində modern satirik dərgi və qəzetlər; c)“Eşek” tipli satirik dərgi və qəzetlər.

II Sultan Əbdülhəmid zamanında mövcud rejimin basqıları səbəbilə satirik mətbuat xarici ölkələrdə fəaliyyət göstərmişdir. İngiltərədə “Hayal” (1895), “Hamidiye” (1896), “Dolab” (1900), “Abdülhamid” (1900); Kıprısda “Akbaba” (1897), “Kokonoz” (1897); İsveçrədə “Beberuhi” (1898), “Tokmak” (1901); Misirdə “Pinti” (1898), “Deccal” (1904), “Zuhuri” (1905), “Curcuna” (1906), “Laklak” (1907); Fransada “İncili Çavuş” (1897) və başqa satirik mətbuat orqanlarında Türkiyənin ictimai-siyasi, ədəbi və mədəni həyatındakı çatışmazlıqlar, eyib və qüsurlar əsas tənqid hədəfi seçilmişdir.

II Sultan Əbdülhəmid dönəmini Türkiyədə xalqın haqq səsinin, azadlıq ideyalarının boğdurulması, ölkədə baş verən mühüm ictimai-siyasi hadisələri, sosial problemləri geniş ictimaiyyətə və eləcə də bütün dünyaya çatdıran satirik mətbuata yasaqların qoyulması, susdurulması və öz fəaliyyətini ölkə xaricində yayımlamaq məcburiyyətində qalması mərhələsi kimi səciyyələndirmək olar.

İkinci fəslin **“Türkiyədə Cümhuriyyət dövrü satirik mətbuat və “Molla Nəsrəddin” jurnalı”** adlanan **ikinci paraqrafında** “Molla Nəsrəddin” jurnalının bu dövrdə Türkiyədə nəşr edilən çoxsaylı satirik mətbuat orqanları ilə qarşılıqlı əlaqəsi tədqiqata cəlb edilir. “Molla Nəsrəddin”in nəşrinə qədər Türkiyənin bu sahədə 36 illik təcrübəsi var idi. Cümhuriyyətin qurulması ilə türk satirik mətbuatının yeni mərhələsi başlanmış və mövzu baxımından xeyli zənginləşmişdir. Satirik mətbuat dövrün böyük yazarları Əziz Nesin, Sabahattin Ali, Rifat İlğaz, Orhan Kemal, Bedii Faik, Haldun Taner, Muzaffer İzgü, Çetin Altan və başqalarının dərin məzmunlu və çoxşaxəli satirik yazıları ilə inkişaf və tərəqqi yolunu tapa bilmişdir.Birinci Dünya müharibəsi və Qurtuluş Savaşı dönəmlərində durğunluq və çökmə prosesi keçirən türk satirik mətbuatı Cümhuriyyətin elanından sonra fərqli bir yolla fəaliyyətini davam

etdirmişdir.1919-1923-cü illəri əhatə edən Milli Mücadilə mərhələsində Türkiyədə "Diken" (1918), "Güleryüz" (1921), "Aydede" (1922) və "Akbaba" (1922) kimi satirik dərgilər nəşr edilmişdir. Tədqiqatçı Gökhan Demirkol 1919-1922-ci illərdə fəaliyyət göstərən türk mətbuatını "Milli mücadilə qarşısında olanlar" və "Milli Mücadiləni dəstəkləyənlər" şəklində iki cəbhəyə ayırmışdır[9].

1922-ci ilin 7 dekabrında Yusif Ziya Ortaç və Orhon Seyfi Orhon tərəfindən nəşr edilən "Akbaba" dərgisi 55 il öz fəaliyyətini davam etdirmiş, 2 minə qədər sayı işıq üzü görmüş və Türkiyənin ən uzunömürlü satirik dərgisi olmaq hüququnu qazanmışdır. "Akbaba" dərgisi Cümhuriyyət dönəmində fəaliyyətini davam etdirərkən, 1947-ci ilin noyabrında siyasi yönümlü "Marko Paşa" nəşrə başlamışdır. İkinci Dünya müharibəsi illərində "Marko Paşa" müharibənin insanlara vurduğu maddi və mənəvi zərbələri, basqı və təzyiqləri, hegemon güclərin işğalçılıq siyasətini tənqid hədəfinə çevirmişdir. 150 illik böyük bir tarixi mərhələ keçən türk satirik mətbuatı Cümhuriyyət dönəmində xalqın tribunasına çevrilə bilmiş, "Akbaba", "Marko Paşa" kimi bir çox dərgilər "Molla Nəsrəddin" ənənələrini uğurla davam etdirərək həm ölkə daxilindəki problemlərə, həm də beynəlxalq aləmdə baş verən qlobal məsələlərə münasibət bildirmiş və xalqa bu problemlərdən qurtarmağın həlli yollarını göstərməyə müvəffəq olmuşdur.

İkinci fəslin **"Adnan Menderes dönəmi və sonrakı mərhələdə Türkiyə satirik mətbuatı"** adlanan **üçüncü paraqrafında** 1950-ci il Demokratik Partiyanın Cümhuriyyət Xalq Partiyasını məğlub etdiyi və türk demokratiyasının qalib gəldiyi mühüm bir mərhələ kimi dəyərləndirilir. Bunun nəticəsi idi ki, "Karakedi" adlı mizah dərgisi Demokratik Partiyanın siyasətini dəstəkləmiş, öz səhifələrində Cümhuriyyət Xalq Partiyasını tənqid edən həqarət dolu satirik yazılara və karikaturalara yer vermişdir. 1952-ci ildə yenidən yayımlanmağa başlayan "Akbaba" dərgisi də öncə dəstəklədiyi Cümhuriyyət Xalq Partiyasını iqtidardan

---

[9] Demirkol, G. Kurtuluş Savaşında mizahın iki cebhesi. "Güleryüz"Aydede"ye karşı // - Türkiye: Çankırı Karatekin Universitesi, Güzel Sanatlar Fakültesi. İletişim Kuram ve Araştırma Dergisi, - 2015. –sayı 41, - s. 140.

uzaqlaşdıqdan sonra kəskin şəkildə tənqid etməyə başlamışdır. Adnan Menderes dövründə nəşr edilən “Karakedi”, “Tef”, “Dolmuş”, “Qırqır”, “Akbaba”, “Temmuz” və başqa satirik dərgilər xalqın istək və arzularının ifadəçisinə çevrilmişdir. Bu gün də fəaliyyətini davam etdirən “Leman”, “Penguen”, “Uykusuz” kimi dərgilər çağdaş Türkiyədə gedən prosesləri ardıcıl və sistemli şəkildə izləyir, çoxsaylı oxucuları ölkə həyatında hökm sürən real hadisələrdən xəbərdar edir və geniş ictimaiyyəti mövcud nöqsanların aradan qaldırılmasında fəal mübarizəyə səsləyir.

Tənzimatdan sonra mətbuat tarixi ilə bağlı tədqiqatlarda əsasən iqtidar müxalifət qarşıdurması ön plana çəkilmiş, satiranin estetik yöndən şərhi araşdırma mövzusu kimi seçilməmişdir. Bu baxımdan İsmayıl Gündoğdunun “Sultan Abdülaziz döneminde mizah basını yoluyla muhalefet”, Levent Cantekin “Bir alt kültür olarak mizah mediyası; Markopaşa örneği” (1999), Hamdi Özdişin “Tanzimat devri mizah qazetelerinde batılılaşma ve toplumsal siyasal eleştiri” (2004), Özgür Umut Haşafçının “Toplumsal muhalefet ve mizah dergileri: Leman dergisi” (2007 ) kimi araşdırmalarda satirik dərgilər estetik yöndən deyil, məhz ictimai və siyasi tənqidin qabardılması yolu ilə təhlilə cəlb edilmişdir.

Dissertasiya işinin ikinci fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[10].

Dissertasiyanın üçüncü fəsli **“Molla Nəsrəddin” jurnalının türk satirik mətbuatına təsiri”** adlanır. Fəslin **“Molla Nəsrəddin” ədəbi məktəbi və Cənubi Azərbaycanda yaranan satira ənənələri”** adlı **birinci paraqrafında**“Molla Nəsrəddin” jurnalının

---

[10] Babayeva, G. “Molla Nasreddin” dergisinde onomastik birimler // - Ankara: Bilimsel Eksen. Dört ayda bir defa yayımlanan uluslararası hakemli dergi. Sosyal Bilimler, - 2020, - sayı 31, - s. - 22-32; Babayeva, G. “Molla Nəsrəddin” jurnalının Türkiyə satirik mətbuatı ilə qarşılıqlı əlaqəsi // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2021. №1, - s. 20-26; Babayeva, G. 50-ci illər və sonrakı mərhələdə Türkiyə satirik mətbuatında “Molla Nəsrəddin” ənənələri // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2023. №1, - s. 77-84; Babayeva, G. Türkiyə satirik mətbuatının təşəkkülü və formalaşması (Osmanlı dönəmi) // Ozbek va Ozarbayjon filologiyasının dolzarb masalaları, - Boku: 15-16 aprel, - 2024-yıl, - I jild, s. 75-87.

İranda, Cənubi Azərbaycanda yaranan satirik mətbuata təsiri və qarşılıqlı əlaqələri məsələləri təhlilə cəlb edilir.

C.Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Nəzmi kimi yazıçı və şairlərin jurnalda dərc etdirdikləri əsərlər Cənubi Azərbaycanda azadlıq ideyalarının güclənməsinə, xalqın şüurunda yeni demokratik düşüncələrin formalaşmasına təkan vermişdir. M.Ə.Sabir yaradıcılığının məşhur İran şairləri Ə.Dehxuda, S.Ə.Gilani, Ə.Lahuti, Q.Kamal və N.Yuşiçin ədəbi fəaliyyətinə güclü təsiri olmuşdur. 1906-cı ildə Təbrizdə Əliqulu Səfərovun redaktorluğu ilə nəşrə başlayan "Azərbaycan" satirik jurnalı, Rəştdə çap edilən "Nəsime-şimal", "Amuziqar", 1907-ci ildə Tehranda nəşrə başlayan "Suri-İsrafil" və "Həşəratül-ərz"(1908) satirik qəzetlərində "Molla Nəsrəddin" ənənələri uğurla davam etdirilmişdir.

Şimali Azərbaycanda Çar Rusiyasının, Cənubi Azərbaycanda isə şah quruluşunun despot zülmü altında əzilən eyni bir xalqın düşdüyü çətin situasiya onları mənəvi birliyə, istibdada qarşı mübarizəyə səsləyirdi. Jurnaldakı çağırış ruhu İranın hakim dairələrini qorxuya salmış, buna görə də "Molla Nəsrəddin" jurnalının sayları yandırılaraq məhv edilmişdir. Ədəbiyyatşünas Məhəmmədluyi Abbasi "Molla Nəsrəddin" və İran"[11] adlı məqaləsində bildirir ki, bu dövrdə irticaçı qüvvələrlə demokratik düşüncəli insanlar arasında kəskin qarşıdurmalar mövcud idi. Vətənini pula satan İran şahı Məhəmmədəli xalqın taleyini Qərb istismarçılarının ixtiyarına vermişdir. Belə bir ziddiyyətlərin mövcud olduğu məmləkətdə "Molla Nəsrəddin" İran xalqını qəflətdən oyandırıb irticaya qarşı inqilabi mübarizəyə səsləməkdə müstəsna rol oynamışdır.

"Azərbaycan" jurnalının publisistikasında C.Məmmədquluzadə, poeziyasında isə Sabir satiralarındakı ideya zənginliyi, satirik üslub, mövzu rəngarəngliyi diqqəti cəlb edir. M. Ə. Sabirin "Molla Nəsrəddin"də dərc edilən "İstiqlal bizimdir", "İran niyə viran oldu", "Neçin verməyir", "Satıram", "Yetim Məmdəli", "Etməzdim", "Mir Haşım", "İran özümündür" və başqa satiralarında el gücünə arxalanmağa böyük önəm verilir, xalqa xəyanət edənlər satqın

---

[11] Abbasi, M. "Molla Nəsrəddin" və İran // Təbriz: Vətən yolunda, - 1944, 17 dekabr, - №149, - s.3

damğası ilə ittiham olunurlar. Şairin məşhur “Səttarxana” şeiri “Molla Nəsrəddin” jurnalı vasitəsilə yayılaraq böyük şöhrət qazanmış, səngərlərdəki əsgərlərin dilinin əzbərinə çevrilmişdir.

M.Ə.Möcüz ustadı Sabir kimi xalqını güldürərək düşündürmək və cəhalət yuxusundan oyadıb elmə, maarifə qovuşdurmaq amalı ilə yaşamışdır. 1921-ci ildə “Molla Nəsrəddin” Təbrizdə nəşr olunarkən Möcüzün şeirləri “Kabla Haxverdi” və “Təzə şair” kimi gizli imzalarla jurnalda dərc edilmişdir.

Ümumiyyətlə, “Molla Nəsrəddin” jurnalı və onun yaratdığı böyük ədəbi məktəb İranda və Cənubi Azərbaycanda milli azadlıq hərəkatının genişlənməsində, demokratik fikirli ictimai mühitin formalaşmasında, satirik mətbuatın və ədəbiyyatın inkişafında müstəsna rol oynamışdır.

“Molla Nəsrəddin”in Təbriz dövrü İranda və Cənubi Azərbaycanda mənəvi dirçəlişə, ictimai tərəqqiyə güclü təkan vermiş və iki yerə parçalanmış xalqlar arasında ədəbi-mədəni körpü yaratmışdır.

Üçüncü fəslin **“Molla Nəsrəddin” və Orta Asiya satirik mətbuatı”** adlanan **ikinci paraqrafında** “Molla Nəsrəddin” jurnalının Orta Asiyada geniş yayılıb oxunması, qazax, qırğız, özbək, türkmən və digər türksoylu xalqların ədəbi-mədəni və ictimai-siyasi həyatında mühüm rol oynaması, satirik ədəbiyyatın və milli mətbuatın inkişafına təkan verməsi məsələləri tədqiq edilir. Türkmənistan müxbirlərinin “Molla Nəsrəddin”ə göndərdikləri yazılar jurnalda tez-tez çap olunurdu. “Molla Nəsrəddin” ənənələri türkmən satirik mətbuatına təsirsiz ötüşməyib. 1930-cu ildə Berdi Kerbabayev, Molla Murt, Ata Salix və başqa türkmən ziyalılarının nəşr etdirdikləri “Tokmak” satira jurnalı da “Molla Nəsrəddin” kimi doğma xalqının azadlığı və müstəqilliyi uğrunda mübarizə aparırdı.

“Molla Nəsrəddin” jurnalının, xüsusilə də Sabir satiralarının “Müştüm” ətrafında toplaşan Q.Qulam, S.Abdulla, Xurşid, Həzlkeş, Fələngi kimi özbək sənətkarlarının yaradıcılığına təsirindən bəhs edən Heyrəti həm də şairi yeni bir ədəbi məktəb yaradan ustad kimi yüksək dəyərləndirir[12]. “Molla Nəsrəddin”in Özbəkistanla sıx bağlılığını göstərən faktlardan biri də jurnalın 1917-ci ilin 5-ci

[12] Heyrəti. Onun təsiri ilə // Bakı: Ədəbiyyat və incəsənət, - 1962, 12 may, - №19, s. 3.

sayında vəkillər və onların missiyasını həyata keçirən idarə və təşkilatlar haqqında siyahı təqdim etməsidir[13]. Özbəkistan satirik mətbuatı jurnalda dərc olunmuş yazıları və karikaturaları bəzən olduğu kimi, bəzən isə onlara nəzirə, parodiya və perifrazlar edərək öz səhifələrində çap etmişdir. Akademik Vahid Abdullayev "Sabir və Əczi" məqaləsində qeyd edir ki, M.Ə Sabirin 1911-ci ildə "Molla Nəsrəddin" jurnalında çap olunmuş "Vaqieyi-yubileykaranə" əsərinin təsiri ilə Əczi 1912-ci ildə "Yuxu" adlı şeirini yazmışdır. Təsadüfi deyildir ki, Əczini "Özbək satirasının Sabiri" adlandırmışlar. Şairin Sabirin "Ey pul", "Əkinçi", "Uçitellər" satiralarına yazdığı "Çervon", "Əkin yerlərinin dərdü-həsrəti", "Ziyalılar" kimi nəzirə və iqtibasları Sabir sənətindən təsirləndiyini göstərən maraqlı nümunələrdir. Tədqiqatçı Toxtasın Cəlalov "Sabirin müasirləri arasında" sərlövhəli məqaləsində Heyrəti, Arəzi, Hacı Alim Qabulov (Həzlkeş) kimi özbək şairlərinin "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcılarından, xüsusilə M. Ə. Sabir satiralarından necə bəhrələndiklərini diqqət mərkəzində saxlayır.

M. Ə. Sabir satiralarının özbək ədəbiyyatına və XX əsr satirik mətbuatına təsiri getdikcə geniş miqyas almış, bütövlükdə özbək satirik poeziyasının qanına və canına hopmuşdur."Molla Nəsrəddin" jurnalının Özbəkistanda böyük şöhrət qazanmasından bəhs edən professor Həmidulla Baltabayev orada nəşr olunan "Müştüm" ("Yumruq") adlı satirik jurnalın nəşr olunmasında "Molla Nəsrəddin"in güclü təsiri olduğunu qeyd etmişdir"[14]. 1917-ci ildə Özbəkistanda nəşrə başlayan "Çayan" satirik jurnalında "Molla Nəsrəddin" ənənələri uğurla davam etdirilmişdir. Azərbaycan və özbək satirik ədəbiyyatının qarşılıqlı şəkildə araşdırılması həmişə diqqət mərkəzində olmuşdur. Bu baxımdan görkəmli alimlərimiz N. Axundov, İ. Həbibbəyli, A. Bağırov, Q. Əliyev, Y. Qasımov və başqalarının tədqiqat əsərlərini xüsusi qeyd etmək olar. Filologiya elmləri doktoru Almaz Ülvi Binnətova özbək ədəbiyyatının üç

---

[13] Babayeva, G. Molla Nəsrəddinin vəkilləri / "Molla Nəsrəddin" ensiklopediyası (Baş red. akademik İsa Həbibbəyli) – Bakı: Elm, - 2020, - s. 301.

[14] Baltabayev, H. Cəlil Məmmədquluzadə və özbək ədəbiyyatı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2020. №1, - s. 151-152.

görkəmli şairi- S. Əczi, M. Sufizadə və H. H. Niyazinin yaradıcılığının "Molla Nəsrəddin" ədəbi məktəbindən rişələndiyini göstərir"[15]."Molla Nəsrəddin" jurnalı digər Orta Asiya xalqlarında olduğu kimi, Qazaxıstanda da geniş yayılmış və satirik mətbuatın inkişafına təsir göstərmişdir.

XX əsr Azərbaycan satirik məktəbinin yaradıcısı "Molla Nəsrəddin" jurnalı Orta Asiya xalqlarının bir ideya ətrafında birləşməsində, realist satirik ədəbiyyatın və mətbuatın inkişafında böyük rol oynamışdır.

Üçüncü fəslin **"Molla Nəsrəddin" və türk satirik mətbuatında ortaq janrlar"** adlanan **üçüncü paraqrafında** türk xalqlarının satirik ədəbiyyatında işlənən təmsil, lətifə, satirik qəzəl, qəsidə, qitə, rübai, nəzirə və s. ortaq janrlar müqayisə və paralellər əsasında araşdırılır.Aydın Abi türk satirasının görkəmli nümayəndələri Ömər Nəfi, Məhməd Əşrəf, Ziya Paşa, Ömər Seyfəddin, Hüseyn Rəhmi, Fazil Əhməd,Neyzən Tofiq, Xəlil Nihad, Rəfiq Xalid,Əziz Nesin kimi dünya şöhrətli sənətkarların yetişməsini Türkiyə satirasının dərin köklərə, münbit zəminə malik olmasının bariz nümunəsi kimi səciyyələndirir[16].

"Mollla Nəsrəddin" jurnalı Türkiyə ədəbiyyatı və satirik mətbuatı ilə sıx bağlı olmuş, öz səhifələrində türk şair və yazıçılarının əsərlərinə yazılmış nəzirə, parodiya və perifrazlara geniş yer vermiş və mətbuatla bağlı xəbərləri dərc etmişdir. C.Məmmədquluzadə, M. Ə. Sabir kimi mollanəsrəddinçilər də qarşılıqlı olaraq Türkiyədə tanınmış və əsərləri türk oxucuları tərəfindən maraqla qarşılanmışdır. M. Ə. Sabir Namiq Kamalın yaradıcılığına dönə-dönə müraciət etmiş, Ziya Paşanın ədəbi irsinə xüsusi önəm vermişdir.Ziya Paşanın "Tərcibənd" və "Tərkibi-bənd" adlı əsərləri Azərbaycanda geniş yayılmış və Ə. Qəmküsar, M. Ə. Sabir, S. Mümtaz, Ə. Nəzmi kimi mollanəsrəddinçi şairlər bu şeirlərə bənzətmə və təhzillər yazmışlar. M. Ə. Sabir Namiq Kamalın "Vətən", yaxud Silistrə" pyesindəki "Vətən şərqisi"nə bənzətmə

[15] Ülvi, A. Azərbaycan-özbək(cığatay) ədəbi əlaqələri / A. Ülvi. Bakı: Qartal, - 2008, - s. 95.

[16] Abıyev, A. A. Türkiyə ədəbiyyatı tarixi (müqayisəli). Dərslik: [2 cilddə] / A.A.Abıyev. Bakı: Bakı Unliversiteti nəşriyyatı, - c. II (I hissə), - 2007, - s. 49.

yazmış, "Hürriyyət qəsidəsi"ndən bir misranı təzmin etmişdir. M. Ə. Sabir yaradıcılığında qəzəl, qəsidə, qitə, parodiya, epiqramma, şərqi kimi janrlardan istifadə edən satirik türk şairi Məhməd Əşrəfin də yaradıcılığına böyük önəm vermiş, onun yaradıcılığını dönə-dönə oxuyaraq dəyərləndirmişdir.

Mollanəsrəddinçilərin yaradıcılığına önəm verdiyi və əsərlərinə nəzirə, bənzətmə, parodiya, təhzil yazdıqları şairlərdən biri də Tənzimat dövrü türk ədəbiyyatının yaradıcılarından olan Mahmud Əkrəm Rəcaizadədir. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatında geniş təbliğ edilmiş, M. Ə. Sabir, A. Səhhət, A. Şaiq, M. H. Zeynalov və başqaları şairin "Yad et" şeirinə bənzətmə, nəzirə, parodiya və təhzillər yazmışlar. Azərbaycan ədiblərinin diqqətini bu qədər cəlb edən "Yad et" şeiri Rəcaizadənin tam orijinal əsəri deyildir. Bu şeir XIX əsr fransız ədibi Alfred de Müssedən sərbəst şəkildə edilmiş bir tərcümədir. Agah Sırrı Levendin "Ədəbiyyat tarixi dərsləri (Tənzimat ədəbiyatı)" adlı kitabında bu şeirin üstündə "Alfred de Müssedən alınmışdır" qeydi yazılmışdır[İstanbul, 1934,s.11]. Bütün bunlar deməyə əsas verir ki, "Yad et" şeiri orijinal əsər deyildir, ancaq şeirin tərcüməsinə Mahmud Əkrəm bəy yaradıcı şəkildə yanaşdığından bir çox oxucular onu Rəcaizadənin orijinal əsəri kimi qəbul etmişlər.İlk dəfə "Yad et" şeiri Azərbaycan mətbuatına "Füyuzat" [2 iyul 1907] jurnalı vasitəsilə daxil olmuş və M.Ə.Rəcaizadənin əsəri kimi təqdim edilmişdir. Sonra M. Ə. Sabir öz şeirini "Molla Nəsrəddin" jurnalında [1907, №31, s. 3] "Rəcaizadə Mahmud Əkrəm bəy əfəndi həzrətlərinin "Yad et!" ünvanlı əşarına nəzirə" qeydi ilə imzasız çap etdirmişdir.

Ümumiyyətlə, təhlillər göstərir ki, Azərbaycan və türk klassik şeir şəkilləri eyni mənbədən rişələnərək boy vermiş, hər iki xalqın çoxəsrlik ədəbiyyatı və satirik mətbuatı bir-birinə təsirsiz ötüşməmiş, qaynayıb-qarışmış, bir məslək ətrafında birləşmişdir.

Dissertasiya işinin üçüncü fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur.[17]

[17] Babayeva, G. "Molla Nəsrəddin" jurnalında işlədilən klassik şeir şəkilləri (Qəzəllər) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2019, №1, - s. 60-68; Babayeva, G. "Molla Nəsrəddin" və özbək satirik ədəbiyyatı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.

Dissertasiyanın dördüncü fəsli **“Molla Nəsrəddin” və türk satirik mətbuatının qarşılıqlı əlaqəsi”** adlanır. Bu fəslin **“Molla Nəsrəddin” jurnalı və tatar satirik mətbuatı (“Tərcüman” qəzeti)”** adlı **birinci paraqrafında** Tataristanda nəşr edilən satirk qəzet və jurnallar, o cümlədən “Tərcüman”və onun əlavəsi olan “Xa-xa-xa”nın “Molla Nəsrəddin” jurnalı ilə qarşılıqlı əlaqəsi konkret faktlar əsasında təhlilə cəlb edilir. Jurnal Kazan, Orenburq, Həştərxan, Baxçasaray, Peterburq, Uralsk, Moskva, Daşkənd və başqa şəhərlərdə geniş yayılmış və şöhrət qazanmışdır. “Vəqt”, “Xa-xa-xa”, “Uklar”, “Cəkirtgə”, “Qarçiqə”, “Top”, “Yaz”, “Yaşen”, “Şura”, “Cögüc”, “Yalt-yult”, “Ak Mulla”, “Qarmaq”, “Tokmak” və başqa mətbuat orqanlarının yaranmasında “Molla Nəsrəddin” jurnalının güclü təsiri olmuşdur.

“Molla Nəsrəddin” öz səhifələrində tatar xalqının həyatından və mətbuat aləmində baş verən yeniliklərdən məlumatlar vermişdir. Jurnalın “Teleqraf xəbərləri”, “Krım məktubları”, “Kazan məktubları”, “Orenburq xəbərləri”, “Mətbuat xəbərləri” və başqa rubrikalarda bu məsələlər geniş şəkildə əksini tapmışdır. “Molla Nəsrəddin” jurnalının mövzu və problematikasını, satirik tərzini,

---

Müqayisəli ədəbiyyatşünaslıq. Azərbaycan-Özbək ədəbi əlaqələri. Xüsusi buraxılış - 1. 2020, - s. 184-190; Babayeva, G. “Molla Nəsrəddin” jurnalı və Mahmud Əkrəm Rəcaizadə // Humanitar Elmlərin İnkişaf Strategiyasi Respublika Elmi Konfransının materialları, - 6-7 mart, - 2021, s. 137-141; Babayeva, G. “Molla Nəsrəddin” ədəbi məktəbinin Cənubi Azərbaycanda yaranan satira ənənələrinn formalaşmasına təsiri // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2021. №2, - s. 53-59; Babayeva, G. Cənubi Azərbaycan mətbuatı və “Molla Nəsrəddin” jurnalı // Uluslararası Sosyal Bilimler Sempozyumu, - Antalya Türkiye: Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi (ASEAD – 9), 28-30 Mayıs, - 2022, - s. 106; Babayeva, G. “Molla Nasraddin” magazine and baha’i faith*. Universidad y Sociedad I Have Scientific of the University of Cienfuegos I İSSN: 2218-3620...Volume 15, - Number 4, - July-August, - 2023, - s. 233-240; Babayeva, G. Mirza Alekper Sabir: “Hophopname” (Tanıtım kitabı) // - Türkiye: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, - 2023. №29, - s. 237-244; Babayeva, G. Əliqulu Qəmküsar və “Molla Nəsrəddin” satirik jurnalı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2023, - №1, - s. 184-193; Babayeva, G. “Molla Nəsrəddin” və Türkiyə satirik mətbuatında işlədilən ortaq janrlar // Türkiye: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, - 2024, c.12, - №32, - s. 81-92.

karikaturalarını təqdir edən tatar şairi Qabdulla Tukay onun təsiri ilə "Uklar" adlı satirik dərgi nəşr etdirmişdir.

İsmayıl bəy Qaspıralı 1883-cü il aprelin 10-da "Tərcüman" qəzetinin nəşrinə nail olmuşdur."Molla Nəsrəddin"in nəşrindən bir neçə gün öncə, 1906-cı il aprel ayının 1-də isə Bağçasaray şəhərində "Tərcüman"qəzetinə əlavə şəklində "Xa-xa-xa"adlı satirik qəzetin nəşrinə başlamışdır. "Xa-xa-xa"da əksini tapan "Əhvali aləmi islam" adlı karikatura mövzu və süjet baxımından "Molla Nəsrəddin" jurnalının ilk sayında O. Şmerlinqin çəkdiyi "Yatmış müsəlmanların təsviri" rəsmi ilə ekvivalentlik yaradır. Qəzetin səhifələrində karikaturalar, satirik yazılar, felyetonlar, mükalimələr yer alsa da, o, uzun müddət fəaliyyət göstərə bilməmişdir.

"Tərcüman" öz səhifələrində dərc etdiyi mətbuat xülasələrində "Molla Nəsrəddin" jurnalının əməkdaşlarına, xüsusilə redaktorun gördüyü işlərə böyük dəyər verirdi. "Molla Nəsrəddin" jurnalı da "Tərcüman"la bağlı yazılar çap edirdi. Jurnalda əksini tapan "Tərcüman" [1908, №4,s.7], "Milli bayram" [1908, №16, s.2], "Təzə xəbər" [1910, №31,s.3] və başqa sərlövhəli yazılarda, "Mətbuat xəbərləri" rubrikasında qəzetin Şərq xalqlarının taleyindəki rolu və əhəmiyyətindən söhbət açılmış və onun 25 illik yubileyi ilə bağlı yazılar dərc olunmuşdur.

Professor Xeyrulla Məmmədov "Tərcüman"ı Rusiya müsəlmanlarının ən uzunömürlü və ən çox oxunan qəzeti adlandırmışdır[18]. Erməni soyqırımlarına qarşı öz etiraz səsini ucaldan "Tərcüman"qəzeti bu önəmli məsələləri qabartmaqla "Molla Nəsrəddin" jurnalı ilə həmfikir olduğunu bəyan etmişdir

İ. Qaspıralı XX əsrin əvvəllərində "dildə, fikirdə, işdə birlik" tendensiyası ilə yanaşı, həm də öz həmməsləklərinə *"hər nə yazacaq isən, qələmi üç qəpiklik mürəkkəbə batırma, ürəyinə batırıb qanı ilə yaz"*[19]- fikriylə də bir səsləniş etmiş və bu ideyanı dil, ədəbiyyat, ictimaiyyət və siyasət sahələrinə tətbiq etməyin vacibliyini gündəmə

[18] Məmmədov, X. "Tərcüman"da Azərbaycan ədəbiyyatı // Bakı: Ədəbiyyat, - 2000, 17 noyabr, - s. 1-2.

[19] Sahil, R. İsmayıl bəy Qaspıralının Əli bəy Hüseynzadəyə məktubu: [Elektron resurs] / - Bakı: 25 aprel 2017, - URL: davam.az%2F37279-smayl-by-qaspralnn-li-by-hseynzady-mktubu-hr-n-yazacaq-isn-qlmi-qpiklik-qa

gətirmişdir. “Molla Nəsrəddin”in dəsti-xəttini, satirik üslubunu və orijinal ifadə tərzini yüksək dəyərləndirən “Tərcüman” qəzeti jurnalın 1906-cı il 37-ci sayında “Mozalan” imzası ilə dərc olunan “Dəbistan” felyetonunu olduğu kimi öz səhifəsində çap etmişdir [1907, №72, s. 3]. “Molla Nəsrəddin” jurnalının 1906-cı ilin 15-ci nömrəsində dərc edilən “Ər və övrət” adlı karikatura “Tərcüman” qəzetində [1908,№58,s.4] də çap olunmuşdur.

“Molla Nəsrəddin”də görkəmli publisist, naşir və ədib İsmayıl bəy Qaspıralının vəfatı münasibətilə nekroloq və şəkil verilmişdir. Görkəmli ziyalının jurnalın 18 oktyabr 1914-cü il, 25-ci sayının üz qabığında dərc edilmlş şəklinin sağ tərəfində yazılmışdır: *“Sentyabrın 11-də dünyadan köçüb 12-də mübarək bədəni torpağa tapşırılan yazıçılar atası İsmayıl Mirzə Qasprinski həzrətlərinin təsviridir”*. Şəklin altında isə bir bənddən ibarət şeir verilmişdir.

“Molla Nəsrəddin” ənənələrindən, onun satirik üslubundan təsirlənən dərgilərdən biri də Troitsk şəhərində nəşr edilən “Ak Mulla”dır.1911-ci ilin 15 avqustunda yayım həyatına başlayan “Ak Mulla”da “Molla Nəsrəddin”dən seçmə nümunələr, əsasən də M.Ə.Sabirin şeirləri ya orijinalda olduğu kimi, ya da tatar dilinə tərcümə edilərək dərc olunurdu. Şairin“Molla Nəsrəddin” jurnalının 1906-cı ilin 11-ci nömrəsində verilən“Əzrailin istefası” şeiri tatar dilinə çevrilərək “Ak Mulla”nın 1911-ci ilin 2-ci nömrəsində oxuculara təqdim edilmişdir.

Orenburqda nəşrə başlayan “Qarçıqə”(1906) dərgisi kəskin satirik yazıları ilə diqqəti cəlb edirdi. Jurnal “Molla Nəsrəddin”dən götürülmüş “Şeytan” (1906, №3) və “Şeytana cavab” (1907, yanvar) felyetonlarına öz səhifələrində yer vermişdir. “Tərcüman” qəzeti türkdilli xalqlarda nəşr edilən dörd satirik jurnalı – “Molla Nəsrəddin”, “Qarçıqə”, “Uklar” və “Çöküc”ü araşdırmış və üstünlüyü “Molla Nəsrəddin” jurnalına vermişdir[20].

Q.Tukay “Molla Nəsrəddin”dən iqtibas qeydi ilə “Mozalanın zarı” şeirini tərcümə edib “Yaşen”də çap etdirmişdir. M.Ə.Sabirin əslində “Şikayət” adlanan həmin şeiri ilk dəfə “Molla Nəsrəddin”in 23 iyul 1908-ci il tarixli 30-cu nömrəsində “Boynuburuq” imzası ilə

[20] Qaspıralı, İ. Bu dörd məcmuə arasında... // Baxçasaray: Tərcüman, -1906, 16 oktyabr, - №116, - s. 3.

çap olunmuşdur. Q.Tukayın tərcüməsində tatar xalqı Sabirin əsərləri ilə yaxından tanış olur, eyni zamanda "Molla Nəsrəddin" jurnalının hər nömrəsi "Vəqt" qəzetinin səhifələrində geniş işıqlandırılır və dərc olunmuş materiallar təhlil olunurdu. "Yulduz" jurnalında "Çalmalı" imzalı müəllifin "Gülgü jurnalları" adlı məqaləsində "Molla Nəsrəddin"in tatar satirik jurnalından yüksəkdə dayandığı sübuta yetirilir və ondan öyrənməyin faydalılığı göstərilirdi.

**Dördüncü fəslin "Molla Nəsrəddin" jurnalı və türk satirik mətbuatında karikatura janrı"** adlanan **ikinci paraqrafında** jurnalda çap olunan karikaturalar türk satirik dərgilərində dərc edilən karikaturalarla müqayisəli şəkildə tədqiqata cəlb edilir. "Molla Nəsrəddin" jurnalı Azərbaycanda satirik qrafikanın zirvəyə qalxmasında müstəsna rol oynamışdır. Jurnalın səhifələrində O. Şmerlinq, İ. Rotter, B.Telinqator (Beno), Ə. Əzimzadə, Y.V. Çəmənzəminli, X. Musayev, A.Qrinyevski, V.Giladze, Ə.İbrahimzadə, S. Behzad, Q. Xalıqov, İ. Axundov, H. Əliyev kimi rəssamların müxtəlif mövzuda çəkdikləri karikaturaları çap olunmuşdur.O. Şmerlinq, İ. Rotter kimi karikatura ustaları C. Məmmədquluzadə ilə birgə əməkdaşlıq etmiş, onların mövzu seçimində, karikaturalardakı milli ornamentlərin, koloritlərin, geyim eskizlərinin, mimika və jestlərin təsvirində redaktorun dəyərli məsləhətlərindən ustalıqla bəhrələnmişlər.O.Şmerlinq Tiflis mərhələsində "Molla Nəsrəddin"in baş rəssamı olmuş, jurnalda dərc edilən yüzlərlə satirik rəsm və karikaturalar rəssamın əvəzsiz sənət inciləridir.Rəssamın yaradıcılığında onun çox böyük professionallıqla yaratdığı Molla Nəsrəddin portreti xüsusi yer tutur. Akademik İsa Həbibbəyli bu əsəri *"Oskar Şmerlinqin kəşfi"*[21] adlandırır. Əsasən 8, bəzən isə 12 səhifə həcmində dərc edilən jurnalda mətnlərdəki ideyalar, təlqin edilən fikirlər karikaturalara da sirayət edir, mətnlə şəklin harmoniyasını yaradır. Mollanəsrəddinçi realist-satirik ədəbiyyatla rəsm sənəti arasındakı əlaqəni aşağıdakı şəkildə təsnif etmək olar:1. Jurnalda dərc edilən müxtəlif forma, məzmun və ideyaya malik konkret mətnlərin konkret rəsmlərə illüstrasiyalar vasitəsilə transfer olunması; 2.Mətnlərdə əksini tapan

---

[21] Həbibbəyli, İ. Mollanəsrəddinçi karikatura ustası / İ.Həbibbəyli. – Naxçıvan: Gəmiqaya, - 2002, - s. 9.

çoxsaylı, çoxqatlı problemlərin sərbəst rəsmlərdə, karikaturalarda inkişaf etdirilməsi; 3.“Molla Nəsrəddin”in ideya və mövzu əlvanlığını, zəngin problematikasını özündə ehtiva edən, bununla belə mətnlərdə inikasını nisbətən az tapan mövzuların karikaturalarda işlənməsi. Jurnalda daha çox konkret mətnlərə çəkilmiş konkret karikaturaların təsvirinə geniş yer verilmişdir.

“Molla Nəsrəddin” jurnalında böyük inkişaf yolu keçən karikatura janrı türk satirik mətbuatında da müstəsna rol oynamışdır. Türkiyədə ən çox oxunan “Leman”, “Penguen”, “Uykusuz” dərgilərinin üz qabığında, ikinci və üçüncü səhifələrində tamamilə siyasi və ictimai gündəmlə əlaqəli karikaturalar yer almışdır. “Molla Nəsrəddin” jurnalı öz səhifələrində dərc etdiyi kəskin satirik karikaturalara görə dəfələrlə bağlandığı kimi türk satirik mətbuatı da bu problemlərlə üzləşmişdir. Görkəmli tədqiqatçı Turqut Çeviker öz araşdırmasında yüz ildən artıq bir dövr ərzində karikatura səbəbindən dərgi və qəzetlərin dəfələrlə qapandığını qeyd edir[22]. Osmanlı dönəmində qapatma cəzaları daha da genişlənmiş, “Diyojen”, “Hayal”, “Kalem” və “Cem”,”Dolmuş”, “Cumhuriyyet Gazetesi”, “Qırqır” və “Tef” bu cəzalarla daha çox qarşılaşmışdır.

Türkiyə satirik mətbuatının inkişaf mərhələlərini Üstün Alsaçın bölgüsündə daha obyektiv görmək mümkündür: *“1)İlk mizah dərgilərinin yayımlanmağa başlamasından Cümhuriyyətin elanına qədər olan dövr – Klassik dönəm; 2) Cümhuriyyətin elanından II Dünya Savaşının sonu və Demokratik Partiyanın iqtidara gəlməsinə qədər olan dövr – II Klassik Dönəm; 3) 1954-cü ildən- 1990-cı illərə qədər – Çağdaş Dönəm; 4) 1990-cı illərdən sonra – Yeni Dönəm.”*[23]

“Molla Nəsrəddin” jurnalının satirik karikaturaları ilə çoxsaylı türk satirik mətbuatında dərc olunmuş karikaturalar, rəngli və rəngsiz rəsmlər, çoxfiqurlu kompozisiyalar, satirik portretlər, qrafika nümunələri və hiperbolizə edilmiş şəkillərdə oxşarlıq və bənzərliklər diqqəti cəlb edir. Xüsusilə də, “Güleryüz”, “Karagöz”, “Qırqır”, “Marko Paşa”, “Akbaba” və başqa satirik mətbuat orqanlarında bunlar daha çox nəzərə çarpır. Bu, mollanəsrəddinçi rəssamların

---

[22] Çeviker, T. Karikatür Üzerine Yazılar / T.Çeviker. - İstanbul: İris, - 1997, - s. 193.

[23] Alsaç, Ü. Türkiyede Karikatür, Çizgi Roman ve Çizgi Film / Ü.Alsaç. - İstanbul: İletişim Yayınları, - 1994, - s. 24.

jurnalda çap etdirdikləri karikaturaların Şərq aləmində, o cümlədən Türkiyədə yayılaraq şöhrət tapması ilə əlaqədardır. Jurnaldakı karikaturalar Türkiyənin 100-dən artıq satirik qəzet və dərgilərində çalışan rəssamlar- Ahmet Rıfkı, Ahmet Münif (Fehim), Ramiz (Gökçe), Ratip Tahir(Burak), Mehmet İzzettin, Zeki Cemal (Bakiçelebioğlu), Hasan Fahrettin, Hasan Rasim(Us), Semih Balçıoğlu, Cemal Nadir və başqaları üçün əsl bir məktəb rolunu oynamışdır. Lakin "Molla Nəsrəddin" jurnalı 1931-ci ilin yanvarından fəaliyyətini dayandırmış, Türkiyədə isə satirik qəzet və dərgilər sayca az da olsa nəşrini davam etdirir və "Molla Nəsrəddin"in karikaturalarından yararlanırlar.

Dissertasiyanın dördüncü fəslinin **"Molla Nəsrəddin" jurnalının türk dünyasında tədqiqi"** adlı **üçüncü paraqrafında** jurnalın tədqiq tarixi araşdırılır. Keçən əsrin əvvəllərindən başlayaraq "Molla Nəsrəddin" haqqında çoxsaylı sanballı tədqiqat əsərləri yazılmışdır. Bu baxımdan Ə.Abidin, Ə. Cəfərzadənin, N. Bağırovun, M. Qasımovun, Ə.Məmmədovun, İ.Talıbzadənin, Ə.Mirəhmədovun, N. Axundovun, K. Talıbzadənin, Ə. Şərifin, Q. Məmmədlinin, Ə. Ruhinin, Ə. Məftunun, İ. Bəktaşinin, İ. Həbibbəylinin, A. Rüstəmlinin,T. Hacıyevin, T. Həsənzadənin, H. İsrafilovun, İ. Ağayevin, M. Nəcəfovun, B. Hacızadənin, E. Qasımovanın araşdırmalarında "Molla Nəsrəddin" jurnalının mövzu və problematikası, ideoloji xətti, satirik tərzi, dil xüsusiyyətləri, karikaturaları və digər önəmli məsələlər geniş şəkildə tədqiqata cəlb edilmişdir.

"Molla Nəsrəddin" jurnalı Cənubi Azərbaycanda, İranda, Orta Asiyada, Türkiyədə və digər türkdilli xalqların yaşadığı coğrafi ərazilərdə geniş yayılmış və tədqiq olunmuşdur. V.B.Klyaştorina, A.T.Tahircanov,M.Abbasi,S.Ə.Kəsrəvi,M.Ə.Dehxuda,S.Sərdarniya, C.Xəndan, Ə.Mirəhmədov,Ə.İ.Şəmidə, N.Axundov, T.Həsənzadə, İ.Həbibbəyli və başqa tədqiqatçıların araşdırmalarında "Molla Nəsrəddin"in Şərq aləmində, o cümlədən İranda, Cənubi Azərbaycanda satirik mətbuatın təşəkkülündə oynadığı roldan bəhs olunmuşdur.

"Molla Nəsrəddin"jurnalı tatar və Orta Asiya xalqlarının satirik mətbuatının inkişafında mühüm rol oynamışdır. Tatar

tədqiqatçıları R.Ş. Başkurov və R. F.Nafiqov Azərbaycan-tatar ədəbi əlaqələrinə həsr etdikləri “İki ədəbiyyatın dostluğu haqqında qeydlər” adlı məqalədə Qabdulla Tukayın “Molla Nəsrəddin” lə sıx bağlılığını göstərən məqamlardan bəhs etmişlər. “Molla Nəsrəddin” jurnalının Orta Asiyada geniş yayılıb oxunması və təbliği daim diqqət mərkəzində olmuşdur. Görkəmli tədqiqatçılar Yaşar Qasımovun “Sabir və XX əsr özbək satirası”, Akif Bağırovun (Azalp),“Sabir və Əczi”, Almas Ülvi Binnətovanın “XX əsr cağatay(özbək) ədəbiyyatı və “Molla Nəsrəddin” jurnalı” və başqa dəyərli araşdırmalarda “Molla Nəsrəddin” jurnalının özbək və eləcə də Orta Asiya xalqlarının satirik mətbuatının formalaşması və təşəkkülündəki rolu tədqiqata cəlb edilir.

1860-cı ildə Londonda çap olunan “Mərkəzi Asiya” icmalının 8-ci cildinin 1-ci nömrəsində “Molla Nəsrəddin” jurnalının İran ədəbiyyatı və mətbuatında satiranın formalaşmasına göstərdiyi təsirdən, M. Ə. Sabir şeirlərinin İran və Türkiyədə geniş yayılması və orada satirik əsərlərin yaranmasına təkan verməsindən bəhs olunur. “Mərkəzi Asiya” icmalının həmin ilin 3-cü sayında “Molla Nəsrəddin” jurnalı, C. Məmmədquluzadə və M. Ə. Sabir haqqında geniş məqalə dərc olunmuşdur.

“Molla Nəsrəddin” ədəbi məktəbi və mollanəsrəddinçilər haqqında Türkiyə şair və yazıçıları, tədqiqatçıları N. Hikmət, H. Ucabaş, F. Köprülü, İ. A. Qövsi, H. K. Qədri, S. R. Rəfioğlu, Ə. Yurtsevər və başqa görkəmli şəxsiyyətlər dövri mətbuatda, ədəbiyyat tarixi kitablarında və bir çox mənbələrdə maraqlı məlumatlar vermişlər. Professor F.Köprül “İslam ensiklopediyası”nın 1950-ci il İstanbul çapının 12-ci hissəsində bütövlükdə Azərbaycan ədəbiyyatından söhbət açarkən Mirzə Ələkbər Sabir yaradıcılığına xüsusi yer verir və yüksək dəyərləndirir. Ankarada nəşr edilən “Türk məşhurları”(1946) adlı kitabda Sabir yaradıcılığından ayrıca bəhs olunur. Professor Səlim Rəfiq Rəfioğlunun Bursa-Ankara kitab evində çap etdirdiyi “Azərbaycan ədəbiyyatı” (1941) kitabında 135 Azərbaycan şairinin ayrı-ayrı lirik parçalardan ibarət şeirləri ilə yanaşı Sabirin şeirlərinə də yer verilmişdir.

Görkəmli tədqiqatçı Hüseyn Kazım Qədri bir neçə cilddən ibarət olan “Türk lüğəti” kitabında türk dilinə məxsus sözlərin

etimalogiyasına nəzər salarkən M. Ə. Sabir yaradıcılığına müraciət etmiş, onun əsərlərinin dil və ifadə zənginliyindən məharətlə yararlanmış və şairin "Hophopnamə"sindən mindən artıq misranı seçərək nümunələr vermişdir.

XX əsrdə olduğu kimi, XXI əsrdə də "Molla Nəsrəddin" jurnalı Türkiyədə araşdırıcıların diqqət mərkəzindədir. Adıgüzel Sedatın "Tiflis edebi muhitinde Molla Nasreddin dergisi ve dergide tartışılan konular", Durmuş Mitatın "Azərbaycan sahası türk edebiyyatında ilk süreli yayın faaliyetleri ve Molla Nasreddin dergisi", Özkan Selahattinin "Azerbaycanın ilk mizah dergisi: Molla Nasreddin" və başqa araşdırmalarda "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilərin yaradıcılığı tədqiqat obyekti kimi seçilmişdir.

"Molla Nəsrəddin" jurnalının 1-3-cü cildləri AMEA-nın müxbir üzvü Əziz Mirəhmədovun, 4-8-ci cildləri isə akademik Bəkir Nəbiyev və akademik Teymur Kərimlinin redaktorluğu ilə nəşr edilib. "Molla Nəsrəddin" jurnalının transfoneliterasiya olunub çapa hazırlanması kimi mürəkkəb və məsuliyyətli işin yerinə yetirilməsində Turan Həsənzadə, Əliheydər Hüseynov və Elmira Qasımova kimi alimlərimizin böyük xidmətləri vardır.

"Molla Nəsrəddin" jurnalının 8 cildində onun 741 nömrəsi toplanmışdır. Bu günə kimi bir çox mənbələrdə jurnalın Bakıda nəşr olunan nömrələrinin sayı yanlış olaraq 398, bəzən isə 400 göstərilib. Lakin son araşdırma və dəqiqləşdirmələr göstərdi ki, "Molla Nəsrəddin"in Tiflisdə 370, Təbrizdə 8, Bakıda isə 363 nömrəsi çapdan çıxmışdır ki, bu da bütövlükdə 741 nömrəni özündə ehtiva edir.

2017-2018-ci illərdə AMEA-nın prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli və Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlinin redaktorluğu ilə "Molla Nəsrəddin" jurnalı yenidən 10 cilddə çap edilmişdir.

2020-ci ildə akademik İsa Həbibbəylinin ideya müəllifliyi, redaktorluğu və ön sözü ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində "Molla Nəsrəddin" ensiklopediyası" nın hazırlanıb çap olunması jurnalın çağdaş dövrdə də böyük əhəmiyyətə malik olduğunu göstərir.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra vaxtilə diqqətdən kənarda qalan mənəvi dəyərlərimiz yenidən işıq üzü gördü və xalqa qaytarıldı.

Dissertasiya işinin dördüncü fəslinə dair müxtəlif elmi jurnallarda aşağıdakı məqalələr dərc olunmuşdur[24] .

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat zamanı irəli sürülən müddəa və tezislər ümumiləşdirilərək belə qənaətə gəlinmişdir:

- Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 1906-cı ilin 7 aprelində Tiflisdə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalı XX əsr Azərbaycan xalqının həyatında böyük tarixi hadisəyə çevrilərək satirik mətbuatın və tənqidi realist ədəbiyyatın zirvəsini fəth etdi.

---

[24] Babayeva, G. The main targets of "Molla Nasreddin" caricatures // XIV İnternational Scientific and Practical Conference, - Warsaw, Poland: "Social and Economic Aspects of Education in Modern society", - June 25, 2019, - Vol. 2, - s. 33-36; Babayeva, G. "Molla Nəsrəddin" və mollanəsrəddinçilər Məmməd Cəfər Cəfərovun tədqiqatlarında // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2019. №2, - s. 41-46; Babayeva, G. Tatar, Orta Asiya Hiciv Basını ve "Molla Nasreddin" dergisi // Astana1. Uluslararası Hukuk ve Sosyal Bilimler Sempozyumu, - Kemer-Antalya, - 13-14 Kasım / November 2021, - s. 128-129; Babayeva, G. "Molla Nəsrəddin" və "Tərcüman" nəşrləri ədəbi-mədəni əlaqələr kontekstində // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2022. №1, s. 40-46; Babayeva, G. "Molla Nəsrəddin" jurnalı və Türkiyə satirik mətbuatında işlənən folklor örnəkləri" (Masallar-nağıllar) // - Türkiye: Akra Kültür Sanat və Edebiyat Dergisi, - 2022, - c. 10/s, - s. 183-191; Babayeva, G. Molla Nasreddin's Traditions in Türkish Satirical Press of the Republikan Period. Paradigm an international journal of social sciencese issn: 2757-78562022/1 Number, - 2022, 1 January, - Ss, 1-11; Babayeva, G."Molla Nəsrəddin" və mollanəsrəddinçilər Heydər Əliyevin elmi dəyərləndirmələrində. Ümummilli lider Heydər Əliyevin 100 illik xatirəsinə həsr olunur. // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu..Azərbaycan ədəbiyyatşünaslığı, - 2023. - №2, - s. 81-86; Babayeva, G. Kamran Məmmədovun elmi irsində satira məsələləri // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2023. №1, - s. 87-95; Babayeva, G. "Molla Nəsrəddin" jurnalı və Türkiyə folklorunda işlənən atalar sözləri və deyimlər // ASEAD 11. Uluslararasi Sosyal Bilimler Sempozyumu, - Lozan-İsviçre, - 20-22 mayıs, - 2023, - s. 357-367; Babayeva, G. "Molla Nəsrəddin" jurnalının türk dünyasında tədqiqi // Bildiri Özet Kitabı. Astana 2. Uluslararası Hukuk ve Sosyal Bilimler Sempozyumu, - İstanbul-Türkiye-Astana Yayınları, - 2023, 11-12 noyabr, - s. 81-82.

Ədəbiyyat və mətbuat tariximizə “mollanəsrəddinçilər” adı ilə daxil olan böyük bir ədəbi qüvvənin yaranması, formalaşması və ədəbi məktəb yaratması məhz ilk satirik mətbuatımızın tarixi xidmətidir.

-25 illik fəaliyyəti boyunca Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda ölüm-dirim mübarizəsi ilə üzləşən “Molla Nəsrəddin” jurnalı bir məmləkətin xoşbəxtliyini onun sərhədlərinin toxunulmazlığı və bütövlüyündə, vətəndaşlarının elmli, savadlı, xalqına fayda verə biləcək ziyalılara çevrilməsində, ana yurdun maddi və mənəvi sərvətlərinin daxili və xarici düşmənlər tərəfindən talan edilməsinin qarşısının alınmasında və gələcək nəsillərə ötürülməsində görürdü. Buna görə də mollanəsrəddinçilər Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin, zəngin xəzinəsinin qorunmasını jurnalın prioritet istiqamətinə çevirmişlər.

- “Molla Nəsrəddin”in nömrələrinin sayı bu günə kimi əksər mənbələrdə, dərsliklərdə, monoqrafiyalarda, tədqiqatlarda dəqiq göstərilməmiş, xüsusilə Bakıda nəşr olunan nömrələrinin sayı əsasən, 398, bəzən isə 400 göstərilmişdir. Lakin son araşdırma və dəqiqləşdirmələrdən sonra məlum oldu ki, jurnalın Tiflisdə 370, Təbrizdə 8, Bakıda isə 363 sayı nəşr edilmişdir. Bu da bütövlükdə 741 nömrəni özündə ehtiva edir.

- Tədqiqatda ilk dəfə olaraq müstəqil Azərbaycan dövlətinin yaratdığı imkanlardan yararlanaraq mollanəsrəddinçilərin milli istiqlal uğrunda mübarizəsi, Azərbaycan Xalq Cumhuriyyətinə münasibəti, Qarabağ mövzusu, erməni-müsəlman məsələsi kimi önəmli problemlər konkret elmi faktlar əsasında təhlilə cəlb edilir.

- Dissertasiyada böyük ənənələrə malik olan Azərbaycan mollanəsrəddinşünaslığına yeni dövrün meyarları prizmasından yanaşılır, mollanəsrəddinçilik təliminin əsas konsepsiyası açıqlanır, mollanəsrəddinçi satiranın ideya qaynaqları Azərbaycan, türk, rus, eləcə də dünya ədəbiyyatşünaslığı kontekstində araşdırılır. “Molla Nəsrəddin”jurnalının rubrikaları, karikaturaları, dili və üslubu konkret ədəbi materiallara istinad edilərək şərh olunur. Jurnalın mövzu və problematikasına, ideya istiqamətinə uyğun olaraq, publisistika dinamik bir janra çevrilmişdir.Xüsusilə də C.Məmmədquluzadə,Ə.Haqverdiyev,Ö.F.Nemanzadə,M,S.Ordubadi kimi yazıçılar publisistikanın ən dəyərli nümunələrini yaratmışlar.

Ümumiyyətlə, mollanəsrəddinçilərin yaradıcılığının üst qatını, görünən hissəsini incə və dərin lirizmlə müşayiət olunan yumor, komik üz örtüyü;  alt qatını satirik öldürücü gülüş, qəmli, hüznlü, kədərli real bir gerçəklik; batinini, mayasını isə yüksək ideallar uğrunda fəal mübarizəyə çağırış ruhu təşkil edir.

- "Molla Nəsrəddin" jurnalında satirik poeziya M. Ə. Sabirin şəxsində novator bir yolla inkişaf etdirilərək zirvəyə yüksəldi. Bu ədəbi cəbhədə fəaliyyət göstərən Ə Nəzmi, Ə. Qəmküsar, Ə. Razi, B. Abbaszadə, M. Möcüz kimi şairlər Sabir satiralarının təsirilə mollanəsrəddinçi satirik poeziyanın əsl yaradıcılarına çevrildilər.

- Karikatura və qrafika sənəti "Molla Nəsrəddin" jurnalı və onun təsiri ilə nəşrə başlayan satirik dərgilər vasitəsilə böyük təkamül yolu keçdi. O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə kimi professional rəssamların sayəsində Azərbaycanda karikatura məktəbi yarandı.

- "Molla Nəsrəddin" jurnalı nəşrə başladığı dövrdən beynəlxalq aləmdə baş verən hadisələrə fəal münasibət bildirmiş, imperialist qüvvələrin işğalçılıq siyasətini satira atəşinə tutmuş,  Şərq xalqlarının, xüsusilə də Cənubi Azərbaycanda, İranda yaşayan həmvətənlərimizin ağır sosial durumunu, ictimai-siyasi hadisələrin burulğanında boğulmasını müntəzəm olaraq öz səhifələrində yazıb dünya ictimaiyyətinə çatdırmışdır. Eyni zamanda İranda hökm sürən şahlıq rejimini, despotizmi və onun idarəedicilərini tənqid obyektinə çevirmişdir. Bununla yanaşı Cənubi Azərbaycanda satirik mətbuat orqanlarının fəalliyyətə başlamasında "Molla Nəsrəddin" jurnalının xüsusi rolu olmuşdur. 1906-cı ildə Əliqulu Səfərovun redaktorluğu ilə Təbrizdə nəşrə başlayan "Azərbaycan", Tehranda çıxan "Sure-İsrafil"(1907), "Həşəratül-ərz"(1908), Rəştdə çap edilən "Nəsime-şimal", "Amuziqar" kimi mətbuat orqanlarında "Molla Nəsrəddin" jurnalının təsiri açıq-aydın duyulmaqdadır. Təsadüfü deyildir ki, "Azərbaycan" jurnalını "Cənubi Azərbaycanın "Molla Nəsrəddin"i adlandırmışlar. "Molla Nəsrəddin" jurnalı 1921-ci ildə 8 nömrəsini Təbrizdə nəşr etmiş, cənublu həmvətənlərinə azadlıq uğrunda mübarizənin yollarını göstərmişdir.

- "Molla Nəsrəddin" jurnalı Şərq və Qərb dünyasında geniş şöhrət qazanmış, ensiklopediya, icmal, xülasə və tədqiqatlarda bu

satirik mətbuat orqanı haqqında məlumatlar dərc olunmuşdur. Bununla belə, akademik İsa Həbibbəylinin araşdırmaları və geniş şəkildə olmasa da, Nazim Axundovun "Azərbaycan satira jurnalları"(1906-1920-ci illər)adlı tədqiqatı istisna olunmaqla, "Molla Nəsrəddin"in bütövlükdə türk dünyasına, Türkiyə, Orta Asiya, tatar, eləcə də türkdilli xalqların satirik mətbuatına təsiri və qarşılıqlı əlaqəsi ilə bağlı sanballı tədqiqatlara rast gəlmək çətindir. Xüsusilə də,Türkiyənin çoxsaylı satirik mətbuatı uzun müddət araşdırmalardan kənarda qalmışdır. Buna görə də dissertasiyada "Molla Nəsrəddin" ənənələrinin ümumtürk kontekstində araşdırılması diqqət mərkəzində saxlanılmış və bu istiqamətdə maraqlı faktlar aşkarlanmışdır.

- Osmanlı dövründə 150 illik tarixə malik olan Türkiyə satirik mətbuatında "Diyojen" (1870-1873), "Hayal" (1873), "İstiqbal" (1873), "Latife" (1873), "Kahkaha" (1874), "Geveze" (1875) "Çaylak" (1876-1877) kimi satirik mətbuat orqanları fəaliyyət göstərmişdi. Bu dönəmdə hakim dairələrin nəzarəti altında olsa da, satirik qəzet və dərgilər nəşr olunmuşdur.

- Türkiyənin ilk satirik mətbuat orqanı olan "Diyojen" "Molla Nəsrəddin"dən 36 il öncə, 1870-ci ildə qeyri-müsəlman naşir Teodor Kasap tərəfindən nəşr edilmiş və 3 il fəaliyyət göstərmişdir. Dərgi mövzu, problematika, mündəricə və yüksək poliqrafiya məsələləri baxımından "Molla Nəsrəddin" jurnalı səviyyəsinə yüksələ bilməmiş, nəşri boyunca hakim dairələr tərəfindən üç dəfə bağlanmış, müəyyən müddət redaktoru həbs edilmiş və nəhayət, azadlığa buraxılmışdır. "Diyojen" dərgisində cəmi üç karikatura yer almış və bunlar ağ-qara təsvirdə verilmişdir. Türkiyədə ilk rəngli karikaturalı "Diken"(1918) dərgisi Sedat Semavinin redaktorluğu ilə "Molla Nəsrəddin"dən on iki il sonra nəşr edilmişdir.

- II Sultan Əbdülhəmidin 33 illik hakimiyyəti dövründə satirik mətbuatın nəşrinə icazə verilməmiş, buna görə də Gənc Türklər ölkə xaricində, xüsusilə də Amerika, Fransa, İngiltərə, İsveçrə, Misir və başqa ölkələrdə fəaliyyətlərini davam etdirmiş və satirik mətbuat orqanlarının poçt vasitəsilə Türkiyəyə daxil olmasına çalışmışlar. Lakin Türkiyənin ictimai-siyasi və sosial həyatındakı çatışmazlıqları, nöqsanları yazıb göstərdiyinə görə satirik qəzet və jurnalların ölkəyə

daxil edilməsinə yasaq qoyulmuş, hətta poçtxanalarda yandırılaraq məhv edilmişdir. Ümumiyyətlə, II Sultan Əbdülhəmid həm "Molla Nəsrəddin", həm də türk satirik mətbuatında yer alan yazılarda və karikaturalarda tənqid hədəfinə çevrilmişdir. Bütövlükdə türk satirik mətbuatının bu mərhələsi Sultan II Əbdülhəmidin yasaqlarına rəğmən Qərb yönümlü idi.

- Türkiyədə II Məşrutiyyətin elanından sonra nəşr edilən qəzet və jurnalların ömrü uzun olmamış, qurtuluş savaşına qədər az sayda satirik mətbuat orqanı fəaliyyətini davam etdirə bilmişdir. Bunlar da iki cəbhəyə ayrılmışlar. 1.Milli Mücadilə qarşısında olanlar; 2.Milli Mücadiləni dəstəkləyənlər. Refik Halidin "Aydede" dergisi birincini, Sedat Semavinin "Güleryüz" dergisi isə ikincini təmsil etmişdir.

-Türkiyə Cümhuriyyətinin elanından və yeni əlifbanın qəbulundan sonra ölkədə ictimai-siyasi hadisələr normal məcraya yönəldi, satirik qəzet və jurnalların azad və sərbəst nəşrinə təminat yaradıldı. 1919-1923-cü illəri əhatə edən Milli Mücadilə mərhələsində türk satirik mətbuatında "Güleryüz" (1921), "Aydede" (1922), "Akbaba" (1922) və s. kimi dərgilər nəşr edildi. Dövrün tanınmış yazarları Əziz Nesin, Sabahattin Ali, Rifat İlğaz, Orhan Kemal, Yusif Ziya Ortaç, Ömer Seyfeddin, Bedii Faiq, Haldun Taner, Muzaffer İzgü, Çetin Altan, Rıza Tevfik və başqalarının dərin məzmunlu və çoxşaxəli satirik yazıları bu mətbu orqanlarda geniş yer tuturdu.

- II Dünya müharibəsi illərində Türkiyədə satirik mətbuatın mövzu dairəsi xeyli genişlənmiş, işğalçı qüvvələrin təcavüzkar siyasəti tənqidə məruz qalmışdır.1947-ci ildə nəşrə başlayan "Marko Paşa" ilk siyasi yönümlü satirik qəzet kimi dövrün aparıcı mətbuat orqanına çevrilmişdir. 1950-ci illər (Menderes dövrü) türk satirik mətbuatının həyatında xeyli dəyişikliklər baş vermişdir. Demokratik Partiya Cümhuriyyət Xalq Partiyasını məğlub etmiş, Cümhuriyyəti təmsil edən partiya müxalif mövqedə dayanmış, aparıcı rol oynamış və satirik mətbuatın inkişafına geniş imkanlar açılmışdır. Bu dövrdə "Akbaba" dərgisi əvvəl dəstəklədiyi Cümhuriyyət Xalq Partiyasını iqtidardan uzaqlaşdıqdan sonra kəskin tənqid etmiş, "Karakedi" dərgisi Demokratik Partiyanın mövqeyindən çıxış etmişdir.

- Türk satirik mətbuatında "Molla Nəsrəddin" ənənələrini

davam etdirən dərgilərdən biri də 1954-1956-cı illərdə nəşr edilən, "Akbaba"nın tam əksinə olan, sosialist yönümlü "Tef" dərgisidir. İki il fəaliyyət göstərdikdən sonra bağlanan dərgi 1960-cı ildə yenidən fəaliyyətə başlamışdır.

- 1972-ci ildə Oğuz Aralın redaktorluğu ilə nəşrə başlayan "Qırqır" "Molla Nəsrəddin" kimi yeni satirik ədəbi məktəbin əsasını qoymuşdu. Jurnal 1922-1991 illərdə Sovetlər Birliyində nəşr olunan "Krokodil"dən sonra beynəlxalq aləmdə ən geniş yayılan dərgilərdən biri olmuşdur. 1989-cu ildə əfsanəvi heyəti dağılan "Qırqır" çağdaş dövrdə əvvəlki şöhrətini saxlaya bilməsə də, yenə də fəaliyyətini zəif şəkildə davam etdirir. Hal-hazırda nəşr edilən "Leman" (1991), "Penguen" (2002), "Uykusuz" (2007), indi fəaliyyətini dayandıran "Çarşaf" (1976), "Limon" (1985), "Hıbır" (1989), "Pişmiş kelle" (1990) dərgiləri "Qırqır"dan törəmiş və "Molla Nəsrəddin"ə məxsus satirik ifadə tərzini, orijinal üslubunu özündə əks etdirmişdir.

- 150 illik tarixə malik olan Türkiyə satirik mətbuatında Cümhuriyyət dönəmində 92, ümumilikdə isə 100- dən artıq qəzet və jurnal nəşr edilmişdir. 1906-cı ildən çağdaş dövrümüzə qədər Türkiyədə nəşr edilən satirik mətbuatda mollanəsrəddinçi publisistika, poeziya və karikatura ənənələri uğurla davam etdirilmişdir.

- Jurnal Volqaboyu ərazilərdə geniş yayılmış, tatar və Orta Asiya xalqlarının ictimai-siyasi həyatında və mətbuat aləmində baş vermiş yenilikləri öz səhifələrində dərc etmiş, eyni zamanda "Molla Nəsrəddin" jurnalında yer alan müxtəlif məzmunlu satirik əsərlər və karikaturalar qarşılıqlı olaraq tatar və Orta Asiya mətbuatında əksini tapmışdır. Bu baxımdan "Tərcüman" qəzetinin redaktoru İ.Qaspıralının, tatar şairi Q.Tukayın C. Məmmədquluzadə və M. Ə. Sabirin əsərlərindən tərcümə və iqtibaslar edərək tatar mətbuatında çap etdirməsi, 1906-cı ildə Q.Tukayın Uralskda "Uklar" adında satirik dərgi yayımlaması, eləcə də "Vəqt", "Xa-xa-xa", "Cəgirtkə", "Cögüc", "AK Mulla", "Tokmak" və başqa satirik mətbuat orqanlarının nəşr olunması "Molla Nəsrəddin"lə tatar, Orta Asiya mətbuatının qarşılıqlı əlaqəsini göstərən maraqlı faktlardır.

- 150 illik tarixə malik olan, müxtəlif dövrlərdə 100-dən artıq satirik mətbuatı yayımlanan,"Akbaba" kimi 55 il yayım həyatı sürən,

keçmiş Sovetlər Birliyində "Krokodil"dən sonra ən çox oxucu sayı qazanan "Qırqır" kimi mətbuat orqanıyla tanınan Türkiyə, eləcə də bir əsrdən artıq yaşı olan tatar, Orta Asiya, Cənubi Azərbaycan və digər türk xalqlarının çoxsaylı mətbuatı "Molla Nəsrəddin" səviyyəsinə yüksələ bilməmiş, satiranın zirvəsini fəth edən dərgiyə çevrilməmişdir. Çünki "Molla Nəsrəddin" jurnalının ideoloji mübarizə xətti, aydın tendensiyası, zəngin problematikası, milli koloriti, mövzu və janr rəngarəngliyi, bənzərsiz, ecazkar dili və yüksək sənətkarlıqla yaradılan karikaturaları Azərbaycanın ilk satirik mətbuat orqanını Şərq aləminin monumental abidəsinə çevirmiş və ona əbədiyyət qazandırmışdır.

"Molla Nəsrəddin" jurnalı 25 illik fəaliyyəti dövründə zülm və istibdada, fanatizmə, cəhalətə qarşı mübarizədə türk xalqlarını birliyə, həmrəyliyə səsləmiş, ədəbi-mədəni və milli-mənəvi dəyərlərimizin qorunmasında misilsiz rol oynamışdır.

**Dissertasiyanın əsas mövzusu və müddəaları müəllifin aşağıdakı monoqrafiyalarında, məqalə və konfrans materiallarında öz əksini tapmışdır.**

## Monoqrafiyalar

1. "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər- Bakı: Elm və təhsil,- 2020,- 416 s.
2. "Molla Nəsrəddin" ensiklopediyası (Baş red. akademik İsa Həbibbəyli) -Bakı: Elm və təhsil,-2020,- 466 s. (73 məqalə).
3. "Heydər Əliyev və milli mətbuat" (müştərək). - Bakı: - Elm və təhsil. 2023,-320 s. kitabının "Heydər Əliyev və "Molla Nəsrəddin" ədəbi məktəbi" adlı III fəsli (85s.)

## Konfrans materialları və elmi məqalələr

1.Babayeva, G. Novruz bayramı "Molla Nəsrəddin" jurnalının səhifələrində // Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2015. №2 (94) - s. 313-315.

2. Babayeva, G. "Molla Nəsrəddin" jurnalında ana dili problemi

// Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. –Bakı: 2016. №2 (98), - s. 344-348.

3. Babayeva, G. “Molla Nəsrəddin” jurnalında erməni-müsəlman məsələləri // Ulu öndərin anadan olmasına həsr olunmuş “Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər” Beynəlxalq elmi konfransın materialları, - Bakı: Mütərcim, - I hissə, - 3-5 may, - 2016, - s. 109-110.

4. Babayeva, G. Ortaq türk əlifbasının yaradılmasında mollanəsrəddinçilərin rolu // I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” mövzusunda Beynəlxalq konfransın materialları, - Bakı: - 14-15 noyabr, – 2016, - s. 201-205.

5. Babayeva, G. “Molla Nəsrəddin”də folklor motivləri (bayatılar əsasında) // - Bakı: AMEA Xəbərlər, Humanitar elmlər seriyası, – 2017, № 2, - s. 197-200.

6. Babayeva, G. “Molla Nəsrəddin” jurnalında onomastik vahidlər // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbiyyat məcmuəsi, - 2017. XXXI cild, - s. 321-327.

7. Babayeva G. “Molla Nəsrəddin”in Teleqraf xəbərləri // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti, - 2017, 3(103), - s. 385-388.

8. Babayeva, G. “Molla Nəsrəddin” jurnalının demokratik dövlət quruculuğu uğrunda fəal mübarizəsi // Azərbaycan Xalq Cümhuriyyəti - 100: Müsəlman Şərqində ilk Parlamentli Respublika, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, - Bakı: Elm və təhsil - 21-23 may, - 2018, - s. 543-547.

9. Babayeva, G. “Molla Nəsrəddin” və Qarabağ mövzusu // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Ədəbiyyat məcmuəsi, - 2018, XXXII cild, - s. 361-368.

10. Babayeva, G. “Molla Nəsrəddin” jurnalında parodiya və perifrazlar (atalar sözləri, hikmətli sözlər və mənasız sözlər əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2019, № 1, - s. 114-118.

11.Babayeva, G. “Molla Nəsrəddin” jurnalında işlədilən klassik şeir şəkilləri (Qəzəllər) // - Bakı: AMEA Nizami Gəncəvi adına

Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2019, №1, - s. 60-68.
12. Babayeva, G. “Molla Nəsrəddin” və folklor (“Tapmacalar” və “El ədəbiyyatı” rubrikaları əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Filologiya və sənətşünaslıq, - 2019, №1, - s. 136-140.
13. Babayeva, G. Satirik poeziyada elm və təhsil məsələləri (“Molla Nəsrəddin” jurnalı əsasında) // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2019. № 2, - s. 110-117.
14.Babayeva, G. The main targets of “Molla Nasreddin” caricatures // XIV İnternational Scientific and Practical Conference, - Warsaw, Poland: “Social and Economic Aspects of Education in Modern society”, - June 25, 2019, - Vol. 2, - s. 33-36.
15.Babayeva, G. “Molla Nəsrəddin” və mollanəsrəddinçilər Məmməd Cəfər Cəfərovun tədqiqatlarında // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2019. №2, - s. 41-46.
16. Babayeva, G. Naxçıvan abidələri “Molla Nəsrəddin” jurnalının səhifələrində // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı Dövlət Universiteti, - 2019. №3(111), - s. 459-461. 17.Babayeva, G. “Molla Nəsrəddin” jurnalı və Xalq Cümhuriyyəti // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2020, №1, - s. 121-127.
18.Babayeva, G. “Molla Nəsrəddin” və özbək satirik ədəbiyyatı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Azərbaycan-Özbək ədəbi əlaqələri. Xüsusi buraxılış - 1. 2020, - s. 184-190.
19.Babayeva, G. Üzeyir bəy Hacıbəyli və “Molla Nəsrəddin” jurnalı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2020, № 2, - s.164-169.
20.Babayeva, G. “Molla Nəsrəddin” publisistikasının janr və üslub rəngarəngliyi // “Klassik Azərbaycan Ədəbiyyatı və İncəsənətinin Milli Özünütəsdiqdə və Mərkəzi Asiyadakı Mədəni Tərəqqidə yeri” Beynəlxalq Elmi Konfransın materialları, - Bakı: Elm və təhsil, - 26-27 noyabr 2020, - s. 177-178.
21.Babayeva, G.“Molla Nasreddin” dergisinde onomastik birimler // - Ankara: Bilimsel Eksen. Dört ayda bir defa yayımlanan

uluslararası hakemli dergi. Sosyal Bilimler, - 2020, - sayı 31, s. 22-32.
22.Babayeva, G. Satirik poeziyada işlədilən klassik şeir şəkilləri (Molla Nəsrəddin jurnalı əsasında) /- Mətbuat tarixi və publisistika məsələləri (Məqalələr toplusu). -Bakı: Ecoprint, -2020, II cild, -s. 59-80.
23. Babayeva, G. Tнe richness of idea and content of «Molla Nasreddin" publicism. // - Таврия: Вчени записки йского национального Университета имени В.И Бернадського. Серия Филология , - 2021. Том 32(71), №6. частина 3, - с. 66-70.
24.Babayeva, G. "Molla Nəsrəddin" jurnalının Türkiyə satirik mətbuatı ilə qarşılıqlı əlaqəsi // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2021. №1, - s. 20-26.
25.Babayeva, G. "Molla Nəsrəddin" ədəbi məktəbinin Cənubi Azərbaycanda yaranan satira ənənələrinn formalaşmasına təsiri // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2021. №2, - s. 53-59.
26. Babayeva, G. Mollanəsrəddinçi satiranın ideya qaynaqları // "Изланиш самаралари" мавзусидаги ёш тилшунос ва адабиётшуносларнинг халқаро илмий анжумани материаллари, - Toshkent: Adast, - 11 dekabr, - 2021, - №6, - s. 256-265.
27.Babayeva, G. "Molla Nəsrəddin" jurnalı və Mahmud Əkrəm Rəcaizadə // Humanitar Elmlərin Inkişaf Strategiyasi Respublika Elmi Konfransının materialları, - Bakı,- 6-7 mart, - 2021, s. 137-141.
28.Babayeva, G. Tatar, Orta Asiya Hiciv Basını ve "Molla Nasreddin" dergisi // Astana1. Uluslararası Hukuk ve Sosyal Bilimler Sempozyumu, - Kemer-Antalya, - 13-14 Kasım/November 2021, - s. 128-129.
29. Babayeva, G. Mollanəsrəddinçi satira nəzəri baxışlar sistemində // - Bakı: Poetika.İzm. AMEA. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, - 2022. №1, - s. 90-97.
30.Babayeva, G. "Xortdanın cəhənnəm məktubları"nda mifik dünya ilə real gerçəklik arasında əlaqə // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2022. №2, - s. 76-82.
31.Babayeva, G. Cənubi Azərbaycan mətbuatı və "Molla Nəsrəddin" jurnalı // Uluslararası Sosyal Bilimler Sempozyumu, -

Antalya Türkiye: Avrasya Sosyal ve Ekonomi Araştirmalari Dergisi (ASEAD – 9), 28-30 Mayıs, - 2022, -s. 106

32.Babayeva, G. "Molla Nəsrəddin" və "Tərcüman" nəşrləri ədəbi-mədəni əlaqələr kontekstində // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq Elmi jurnal, - 2022. №1, s. 40-46.

33.Babayeva, G. Ömər Faiq Nemanzadə və "Molla Nəsrəddin" ədəbi məktəbi // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya və sənətşünaslıq, - 2022. №2, - s. 66-71.

34.Babayeva, G. "Molla Nəsrəddin" jurnalı və Türkiyə satirik mətbuatında işlənən folklor örnəkləri"(Masallar-nağıllar) // - Türkiye: Akra Kültür Sanat və Edebiyat Dergisi, - 2022, - c. 10/s, s. 183-191.

35.Babayeva, G. Molla Nasreddin's Traditions in Türkish Satirical Press of the Republikan Period. Paradigm an international journal of social sciencese issn: 2757-78562022 / 1 Number, - 2022, 1 January, - Ss, 1-11.

36.Babayeva, G. 50-ci illər və sonrakı mərhələdə Türkiyə satirik mətbuatında "Molla Nəsrəddin" ənənələri // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, - 2023. №1, - s. 77-84.

37.Babayeva, G. "Molla Nasraddin" magazine and baha'i faith*. Universidad y Sociedad I Have Scientific of the University of Cienfuegos I İSSN: 2218-3620...Volume 15, - Number 4, - July-August, - 2023, - s. 233-240.

38.Babayeva, G. Mirza Alekper Sabir: "Hophopname" (Tanıtım kitabı) // - Türkiye: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, - 2023. №29, - s. 237-244.

39. Babayeva, G. Əliqulu Qəmküsar və "Molla Nəsrəddin" satirik jurnalı // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2023, - №1, - s. 184-193.

40.Babayeva, G. Kamran Məmmədovun elmi irsində satira məsələləri // -Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Poetika.İzm, - 2023. №1, - s. 87-95.

41.Babayeva, G."Molla Nəsrəddin" və mollanəsrəddinçilər Heydər Əliyevin elmi dəyərləndirmələrində. Ümummilli lider

Heydər Əliyevin 100 illik xatirəsinə həsr olunur. // - Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan ədəbiyyatşünaslığı, - 2023. - №2, - s. 81-86.

42. Babayeva, G. "Molla Nəsrəddin" jurnalı və Türkiyə folklorunda işlənən atalar sözləri və deyimlər // ASEAD 11. Uluslararasi Sosyal Bilimler Sempozyumu, - Lozan-İsviçre, - 20-22 mayıs, - 2023, - s. 357-367.

43. Babayeva, G. "Molla Nəsrəddin" jurnalının türk dünyasında tədqiqi // Bildiri Özet Kitabı. Astana 2. Uluslararası Hukuk ve Sosyal Bilimler Sempozyumu, - İstanbul-Türkiye-Astana Yayınları, - 2023, 11-12 noyabr, -s. 81-82.

44. Babayeva, G. "Molla Nəsrəddin" və Türkiyə satirik mətbuatında işlədilən ortaq janrlar // Türkiye: Dergi Park. Akra Kültür Sanat ve Edebiyat Dergisi, - 2024, c.12, - №32, - s. 81-92.

45. Babayeva, G. Türkiyə satirik mətbuatının təşəkkülü və formalaşması (Osmanlı dönəmi) // Ozbek va Ozarbayjon filologiyasının dolzarb masalaları, - Boku: 15-16 aprel, - 2024-yıl, - I jild, s. 75-87.

Dissertasiyanın müdafiəsi 28 iyun 2024-cü il tarixində saat $12^{30}$-da AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 may 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:24.05.2024
Kağızın formatı: A5
Həcm:86 327
Tiraj:100